

Milli azadlıqdan
şirin nemət yoxdur!

# Xocalı faciəsi qurbanlarının əziz xatirəsinin əbədiləşdirilməsi məqsədilə qərara alıram...



Bax səh. 2

# Unutmadıq, unutmayacağıq!

## Xocalı soyqırımından 33 il ötür




Bax səh. 4

YENİ AZƏRBAYCAN
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir
Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

26 fevral
2025-ci il,
çərşənbə
№ 035 (6863)
Qiyməti
60 qəpik

# Azərbaycan - Pakistan: Tarixi bağlara və qarşılıqlı maraqlara əsaslanan dostluq münasibətləri

Bax səh. 2



# Tarixi ədalətin bərpa edilməsi...

Bax səh. 3



# Regionun nəhəng qeyri-hökumət təşkilatı kimi...

Bax səh. 5

# Siyasi partiyalar ümummilli məsələlərdə hər zaman açıq əməkdaşlığa hazırdırlar



Bax səh. 3

## Saxta "sülhpərvər"...

Ermənistanın davranışları onun sülhə maraqlı olmadığını nümayiş etdirir. Bu ölkənin xarici işlər naziri Ararat Mirzoyanın BMT-nin İnsan Hüquqları Şurasının 58-ci sessiyasının iclasındakı çıxışında səsləndirdiyi fikirlər də bunu təsdiqləyir. Nə qədər paradoksal olsa da, Mirzoyan ölkəmizin sülhə maraqlı olmadığını deyib, Azərbaycanda hazırda məhkəmələri davam edən bir qrup müharibə cinayətkarına haqq qazandıran, insan hüquqları anlayışına zidd və bölgədə sülh səylərinə mane olan fikirlər səsləndirib. O iddia edib ki, guya Azərbaycandan verilən bəyanatlar Ermənistanın ərazi bütövlüyünü şübhə altına qoyur. Mirzoyan burada 1991-ci il Almatı Bəyannaməsinə istinad edib. Sual olunur, əgər...

Bax səh. 5

## Fransız səfir Ermənistanın "vəkili" rolunda

Fransa Azərbaycana qarşı qərəzli mövqeyini davam etdirir. Rəsmi Paris Ermənistanın maraqlarına xidmət edərək ölkəmiz haqqında böhtan kampaniyası aparır. Fransanın Ermənistandakı səfiri Olivye Dekotinyi də diplomatik etiket qaydalarını unudaraq dəfələrlə Azərbaycana qarşı yalan və böhtanlardan ibarət fikirlər səsləndirib. Halbuki onun vəzifəsi təmsil etdiyi ölkə ilə səfir kimi çalışdığı dövlətin əlaqələrinə xidmət etməlidir. Amma Dekotinyi vəzifə səlahiyyətlərini aşaraq Ermənistanın "vəkili"...

Bax səh. 5

## Gecikmiş addım, yaxud...

Fevralın 25-də Rusiya-Ukrayna müharibəsinin üçüncü ildönümü ilə əlaqədar Avropa İttifaqı ölkələrinin təşəbbüsü ilə BMT Baş Assambleyasında fövqəladə sessiya keçirilib - sessiyanın sonunda Rusiya qüvvələrinin Ukraynadan dərhal çıxarılmasını və müharibənin dayandırılmasını tələb edən qətnamə qəbul olunub. Səsvermə zamanı qətnamə 93 lehinə, 18 əleyhinə səslə təsdiqlənib, 65 ölkə isə səsvermədə birtərəf qalıb. ABŞ və Rusiya qətnamənin əleyhinə səs verib.

Sözügedən qətnamədə vurğulanıb ki, Rusiya-Ukrayna müharibəsi 3 il davam edir və...

Bax səh. 6

## Siyasi səhnənin iştirakçıları dəyişir...

Fevralın 23-də Almaniyada parlament seçkiləri keçirildi. Qeyd edək ki, Almaniya 299 birmandatlı seçki dairəsinə bölünür və hər bir seçici Bundestaq üçün konkret namizədə səs verməlidir. Səslərin 5 faizdən çoxunu toplayan partiyalar federal ştatlarda tərtib edilmiş partiya siyahıları əsasında parlament fraksiyaları yaradırlar. Hazırkı seçkilər ilk dəfə olaraq yeni qanuna əsasən keçirilib: parlamentdəki yerlərin sayı 733-dən 630-a endirilib. Parlamentdə proporsional partiya təmsilçiliyi hüququ yenə də namizədləri...

Bax səh. 7

## Düşmənlərin əbədi izdivacı

Onu tarixin dərinliyinə çəkən iki başlıca səbəb vardı: biri havasıyla nəfəs aldığı burjua gerçəkliyinə patoloji ikrah duyduğuna görə keçmişdə sığınacaq axtarması, o biri ta gəncliyindən qədim tarixə qəribə bir doğmalıq, məhrəmlik hissi bəsləməsi.

Qələm dostlarına yazdığı məktublardan göründüyü kimi, Floberin qəlbində dərinə işləmiş, bəlkə yüzüncü babasınacan kök atmış güclü reinkarnasiya duyğusu, görmədiyi, yaşamadığı zamanlara, bəşərin uşaqlığına, gəncliyinə həsrətdən doğan kövrək, həzin bir nostalji havası daim hökm sürüb. Ona elə gəlirmiş tarixin ən...

Bax səh. 7



# Avropanın sərt üzü: Miqrantlar hara üz tutsunlar?

Bax səh. 6

# Azərbaycan - Pakistan: Tarixi bağlara və qarşılıqlı maraqlara əsaslanan dostluq münasibətləri

Müstəqil Azərbaycan İslam dünyasının bir parçası olmaqdan qürur duyur. Xalqımızın bir çox ənənələri, nəsillərdən-nəsillərə ötürülən milli-mənəvi dəyərlərimiz müqəddəs İslam dini ilə sıx bağlıdır. Bu reallıqdan çıxış edən dövlətimiz dünyada İslam həmrəyliyinin möhkəmlənməsinə davamlı töhfələr verir. Bu məzmunda ardıcıl şəkildə reallaşdırılan siyasət İslam dünyasında ölkəmizə və onun Liderinə böyük hörmət qazandırıb. Respublikamızın ayrı-ayrı İslam ölkələri ilə ikitərəfli və çoxtərəfli platformalarda əməkdaşlıq əlaqələrinin genişlənməsi bunun əyani təsdiqidir. Belə dövlətlərdən biri də dost Pakistan İslam Respublikasıdır. Həm Azərbaycan, həm də Pakistan tarixi bağlara və qarşılıqlı maraqlara əsaslanan əlaqələrin daha da möhkəmlənməsində maraqlıdır. Bu istək Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərifin respublikamıza baş tutan dövlət səfəri çərçivəsində keçirilən görüşlərdə və liderlərin mətbuata verdikləri bəyanatlarda bir daha ifadə olunub.





## Dövri təmaslar iki qardaş ölkə arasında sıx tərəfdaşlıq münasibətlərinə zəmin yaradır

Tarixin bütün dönəmlərində hər iki ölkə bir-birinə xoş mərama əsaslanan münasibət sərgiləyib. Qeyd edək ki, Pakistan Azərbaycanın müstəqilliyini ilk tanıyan (1991-ci il dekabrın 12-si) dövlətlərdən biri olub. Ölkələrimiz arasında diplomatik əlaqələr 1992-ci il iyunun 9-da qurulub. Həmin dövrdən sonra Azərbaycan-Pakistan əlaqələri davamlı şəkildə inkişaf etməklə bugünkü strateji müttəfiqlik səviyyəsinə yüksəlib. 1993-cü ilin martında Pakistanın Bakıda, 1997-ci ilin avqustunda isə Azərbaycanın İslamabadda səfirlikləri təsis edilib.

İki ölkə arasında siyasi dialoqun dinamik səciyyə daşımasında liderlər arasında yaranan səmimi münasibətlər xüsusi rol oynayır. Onlar mütəmadi qaydada görüşərək ikitərəfli və çoxtərəfli gündəliklər ətrafında aktual müzakirələr aparırlar. Prezident İlham Əliyev mətbuata verdiyi Bəyanatında bu məqama diqqət çəkərək vurğulayıb: "Çox şadam ki, dövri təmaslarımız iki qardaş ölkə arasında daha sıx tərəfdaşlıq münasibətlərinə zəmin yaratdı".

Xatırladaq ki, iki ölkə arasında qarşılıqlı səfərlər Prezident Heydər Əliyevin 1994-cü ilin dekabrında Kasablankada Pakistanın ovaxtkı Baş naziri Benazir Bhutto ilə görüşündən sonra başlayıb. Bu görüşlə ikitərəfli münasibətlər yeni inkişaf mərhələsinə qədəm qoyub. 1995-ci ilin oktyabrında Pakistan Prezidenti Sərdar Faruk Əhməd Xan Leqari Bakıya rəsmi səfər edib, bir il sonra - 1996-cı ilin aprelində isə Heydər Əliyevin dost ölkəyə rəsmi səfəri baş tutub.

Sonrakı mərhələdə Prezident İlham Əliyevin Pakistana və dost ölkənin dövlət və hökumət rəhbərlərinin Azərbaycana çoxsaylı səfərləri reallaşıb. Pakistanın Baş naziri bundan əvvəl 2023 və 2024-cü illərdə ölkəmizə səfər edib. Prezident İlham Əliyev isə 2024-cü ilin iyul ayında Pakistanda dövlət səfərində olub. Həmin səfər zamanı Azərbaycan Prezidentinə xüsusi hörmət əlaməti olaraq dövlətimizin başçısının təyyarəsini Pakistanın hava məkanında bu ölkənin Hərbi Hava Qüvvələrinin qırıcı təyyarələri qarşılayıb və enənədək müşayiət edib.

Döst ölkənin Baş nazirinin respublikamıza budəfəki səfərinin proqramı kifayət qədər geniş əhatə dairəsinə malik olub. Səfər çərçivəsində liderlər ikitərəfli gündəliyə aid çox mühüm məsələlər ətrafında müzakirəlr aparıblar, ölkələrimiz arasında sıx tərəfdaşlığın vacibliyini bir daha diqqətə çatdırıblar.



## Regional və qlobal səciyyə daşıyan məsələlərdə üst-üstə düşən yanaşmalar

Azərbaycan və Pakistan yerləşdikləri coğrafiyaların önəmli dövlətləridirlər. Buna görə də səfər çərçivəsində baş tutan tədbirlərdə iki dost dövlət arasında getdikcə möhkəmlənən münasibətlərin həm milli səviyyəllərdə, həm də regional miqyasda strateji əhəmiyyət daşıdığı xüsusi vurğulanıb. "...Əziz qardaşımla zəmanəmizin beynəlxalq gündəliyində duran çoxsaylı məsələləri müzakirə etdik. Beynəlxalq münasibətlərin cari gedişatı ilə bağlı mövqeyimiz və baxışlarımız tam üst-üstə düşür", - deyə Prezident İlham Əliyev qeyd edib.

Öz növbəsində Pakistanın Baş naziri də mətbuata verdiyi Bəyanatında oxşar fikirləri bölüşüb. Azərbaycan Qəzzada baş verənlərə birmənalı münasibətini dəfələrlə açıq şəkildə bəyan edib. Ölkəmiz o mövqedən çıxış edir ki, bu məsələdə BMT-nin qəbul etdiyi qətnamələr yerinə yetirilməli, problem iki dövlət prinsipi əsasında həllini tapmalıdır. Pakistan da eyni yanaşmadan çıxış edir. "İndi Qəzza əhalisinin daimi atəşkəsə ehtiyacı var və dünya qəzzalıların və fələstinlilərin haqq işini qəbul edib, ikidövlətli həll prinsipi əsasında Fələstin dövlətinin yaradılması məsələsində tam yekdillik var. Düşünürəm ki, bu vaxt, yəni, fasilə zamanı, Qəzzada daimi atəşkəsə sadiqlik olacaq və zənnimcə, bu ərazidə iki dövlətin mövcudluğu - Fələstin dövlətinin yaradılması arzusu yaxın gələcəkdə reallaşacaq", - deyə Məhəmməd Şahbaz Şərif bildirib.

## Xalqlar arasında əlaqələr, humanitar sahədə əməkdaşlıq

Elə ölkələr var ki, onlar hansısa maraqlardan və şərtlərdən çıxış etməklə münasibətlər qururlar. Təbii ki, belə əməkdaşlıq uzunömürlü olmur. Azərbaycanla Pakistanın dostluq münasibətləri isə keçici maraqlardan uzaqdır. Etiqad eyniliyi, milli-mənəvi dəyərlərin oxşarlığı, bir sıra tarixi amillər Azərbaycan və Pakistan cəmiyyətlərini həmişə bir-birinə bağlayıb. Bu gün Pakistanda Azərbaycana, Azərbaycanda isə Pakistana bilavasitə cəmiyyətlərdən gələn səmimi rəğbət hissi var. Bu amilə məmnunluq hissi ilə diqqət çəkən Prezident İlham Əliyev deyib: "Pakistan bizim üçün ən yaxın dost və qardaşlardan biridir. Xalqlar arasında əlaqələr də uğurla inkişaf edir".

Yeri gəlmişkən, iki dost ölkənin sıx əməkdaşlıq etdiyi istiqamətlərdən biri humanitar sahədir. İndiyədək Azərbaycanın və Pakistanın elm və təhsil müəssisələri arasında sıx əlaqələr qurulub. Azərbaycan hökuməti Pakistanda fövqəladə halların yaratdığı fəlakətlərin nəticələrinin aradan qaldırılması məqsədilə dost ölkəyə yardımlar edib.

İki ölkə arasında humanitar sahədə əməkdaşlığın genişlənməsinə Heydər Əliyev Fondu mühüm töhfələr verir. Fond tərəfindən Pakistanda bir çox sosialyönümlü humanitar layihələr həyata keçirilib. Belə ki, fondun təşəbbüsü və dəstəyi ilə pulsuz tibbi diaqnostika və əməliyyatlar aparılıb, tibb müəssisələrinin və su təchizatı sistemlərinin tikintisinə töhfələr verilib, xeyriyyə tədbirləri təşkil edilib, əlilliyi olan şəxslər əlil arabaları ilə təmin olunub və digər xeyriyyə layihələri həyata keçirilib.

Bu qəbildən olan müstəsna xidmətlərinə görə Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva 2013-cü ildə Pakistanın nüfuzlu "Könüllü qadınlar" təşkilatı və "Daily Times" qəzeti tərəfindən "Humanizmin Simvolu - 2012-ci İlin Qadını" mükafatı ilə təltif olunub. 2015-ci ildə isə Pakistan Prezidenti Məmnun Hüseyn Mehriban xanım Əliyevanın "Hilal-e Pakistan" ali ordeni ilə təltif edilməsinə dair sərəncam imzalayıb. Mehriban xanım Əliyeva bu orden ilə təltif olunan ilk birinci xanımdır. Pakistan Prezidenti Məmnun Hüseyn sözügedən ordeni 2015-ci il martın 11-də ölkəmizə rəsmi səfəri zamanı Mehriban xanım Əliyevaya təqdim edib.

***Mübariz ABDULLAYEV***



# Xocalı faciəsi qurbanlarının əziz xatirəsinin əbədiləşdirilməsi məqsədilə qərara alıram...

## Xocalı şəhərində Xocalı Soyqırımı Memorial Kompleksinin yaradılması haqqında Azərbaycan Respublikasının Prezidenti Sərəncam imzalayıb

Ermənistan Respublikasının Azərbaycan Respublikasına hərbi təcavüzü ilə başlanan I Qarabağ müharibəsi (1991-1994) zamanı Ermənistan tərəfindən Şərqi Zəngəzur və Qarabağ işğal edilərək dağıdılmış, Azərbaycan xalqına qarşı ən ağır beynəlxalq cinayətlər törədilmişdir.

1992-ci il fevralın 26-da Xocalı şəhəri işğal edilərkən dinc əhaliyə qarşı etnik zəmində törədilən soyqırımı cinayəti münaqişənin ən qanlı səhifəsidir.

Belə ki, erməni silahlı birləşmələri tərəfindən aylarla blokada şəraitində saxlanılaraq, ərzaq, elektrik enerjisi və bütün kənar yardımlardan məhrum edilən 2500-ə yaxın Xocalı sakini düşmənin çoxsaylı təhdidlərinə baxmayaraq, şəhəri tərk etməkdən imtina etmişdi. Fevralın 25-dən 26-na keçən gecə davamlı artilleriya atəşindən sonra Ermənistan silahlı qüvvələri və yarım-hərbi birləşmələri keçmiş sovet ordusunun 366-cı motoatıcı alayının köməyi ilə şəhərə hücum edərək, mülki əhaliyə misli görünməmiş vəhşiliklə divan tutmuşlar. Həmin qətliam nəticəsində 613 azərbaycanlı, o cümlədən 106 qadın, 63 uşaq, 70 ahıl xüsusi amansızlıqla qətlə yetirilmiş, 1275 nəfər əsir götürülmüş, onlardan 150-nin taleyi isə indiyədək naməlum qalmışdır. 8 ailə tamamilə məhv edilmiş, 25 uşaq valideynlərindən hər ikisini, 130 uşaq isə valideynlərindən birini itirmişdir. 487 şəxs, o cümlədən 76 uşaq məruz qaldıqları ağır fiziki və psixoloji işgəncələrdən ömürlük əlilə çevrilmişdir.

Ermənistanın bütün cəhdlərinə, xüsusilə də o dövrdə yaratdığı informasiya blokadasına baxmayaraq, cinayətin miqyası və ağırlığı dünyanın aparıcı media qurumlarının və beynəlxalq təşkilatlarının hesabatlarında işıqlandırılmışdı. Yerli və xarici jurnalistlərin faciədən sonra Xocalı şəhəri və ətraf ərazilərdən topladıqları foto və video materiallar, o cümlədən şahid ifadələri hadisənin bütün dəhşətlərini açıq-aşkar göstərir. Avropa İnsan Hüquqları Məhkəməsinin 2010-cu ildə məsələ ilə bağlı çıxardığı yekun qərarda Xocalıda törədilən əməllər müharibə cinayətləri və insanlıq əleyhinə cinayət kimi qiymətləndirilmişdir.

Ermənistanın Xocalını işğal etmək planı hərbi məqsədlərlə məhdudlaşmır, eyni zamanda həmin ərazilərdəki Azərbaycan xalqına məxsus zəngin tarixi-mədəni izləri silmək, mədəni irsi məhv etmək və saxtalaşdırmaq niyyəti güdürdü.

Xocalı soyqırımının əsl hüquqi qiymətini alması və dünyanın belə bir cinayətdən xəbərdar olması ilə bağlı milli səviyyədə addımlar Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra atılmışdır. Milli Məclisin 1994-cü il 24 fevral tarixli qərarı ilə fevralın 26-sı Xocalı Soyqırımı Günü elan edilmiş və bu barədə beynəlxalq təşkilatlara məlumat verilmişdir.

Dövlət qurumları, xaricdə yaşayan soydaşlarımız, vətəndaş cəmiyyəti institutları, xüsusən, Heydər Əliyev Fondu Xocalı soyqırımının unudulmaması və beynəlxalq ictimaiyyət tərəfindən tanınması üçün əzmlə fəaliyyət göstərmişlər. Xocalı soyqırımının beynəlxalq səviyyədə tanıdılması məqsədilə Heydər Əliyev Fondunun dəstəyi ilə 2008-ci ildə başladılmış "Xocalıya ədalət!" maarifləndirmə kampaniyası çərçivəsində dünyanın bir çox ölkələrində Xocalı faciəsi ilə bağlı məlumatlılıq artırılmış, bir sıra tədbirlər, təqdimatlar, sərgilər keçirilmiş, kitab və məqalələr dərc edilmişdir.

Həmin kampaniya sayəsində 18 ölkənin qanunverici orqanı, ABŞ-nin 24 ştatı, həmçinin İslam Əməkdaşlıq Təşkilatı və Türk Dövlətləri Təşkilatı Xocalıda baş vermiş faciəni soyqırımı kimi tanımış və pisləmişdir. Hazırda xarici ölkələrdə Xocalı soyqırımı qurbanlarının xatirəsinə ucaldılmış 10 abidə mövcuddur.

2020-ci ilin sentyabr-noyabr aylarında 44 günlük Vətən müharibəsi və 2023-cü ilin sentyabr ayında birgünlük lokal xarakterli antiterror əməliyyatında Azərbaycan Ordusunun rəşadəti və qəhrəmanlığı sayəsində tarixi torpaqlarımız, o cümlədən Xocalı rayonu işğaldan azad olundu və 2023-cü il oktyabrın 15-də Xocalıda Azərbaycan Bayrağı ucaldıldı.

İşğaldan azad edilmiş bütün ərazilərdə hazırda sürətli bərpa-quruculuq işləri və Böyük Qayıdış prosesi davam etməkdədir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan xalqına qarşı törədilmiş soyqırımının beynəlxalq səviyyədə tanıdılması və Xocalı faciəsi qurbanlarının əziz xatirəsinin əbədiləşdirilməsi məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasının Xocalı şəhərində Xocalı Soyqırımı Memorial Kompleksi yaradılsın.
2. Xocalı Soyqırımı Memorial Kompleksinin yaradılması məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 11 fevral tarixli 479 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsində işğaldan azad edilmiş ərazilərin yenidən qurulması və bərpası üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.29-cu yarımbəndində göstərilmiş məbləğin 18,3 milyon (on səkkiz milyon üç yüz min) manatı Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinə ayrılsın.
3. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 2-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.
4. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyi, həmçinin digər aidiyyəti dövlət orqanları (qurumları) Soyqırımı Memorial Kompleksinin yaradılması məsələlərinin həlli ilə bağlı zəruri tədbirlər görsünlər.
5. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 25 fevral 2025-ci il**

# Siyasi partiyalar ümummilli məsələlərdə hər zaman açıq əməkdaşlığa hazırdırlar

“Suverenliyin bərpası: siyasi müstəvidə yeni münasibətlər sisteminin formalaşdırılması” mövzusunda dəyirmi masa keçirilib.

Siyasi partiyalarla dövlət orqanları arasında konstruktiv əməkdaşlığın inkişaf etdirilməsi, eləcə də siyasi dialoq






mühitinin təşviq olunması məqsədilə Prezident Administrasiyası tərəfindən fevralın 25-də “Hilton Baku” hotelində dəyirmi masa təşkil olunub.

AZƏRTAC xəbər verir ki, dəyirmi masada Milli Məclis Aparatının, Mərkəzi Seçki Komissiyasının, Ədliyyə və Maliyyə nazirliklərinin, Hesablama Palatasının, 24 siyasi partiyanın nümayəndələri, həmçinin tanınmış alimlər, politoloqlar, siyasi şərhçilər, internet televiziya kanalları və onlayn media subyektlərinin nümayəndələri iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev ötən dövr ərzində mövcud istiqamətdə görülmüş işlər haqqında danışaraq, Prezident İlham Əliyevin təşəbbüsü ilə ölkədə davamlı olaraq müxtəlif siyasi qüvvələr arasında konstruktiv əməkdaşlıq, sağlam siyasi dialoq və ümummilli məsələlərdə həmrəylik mühitinin təşviq olunduğunu bildirib.

Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində qazanılan şanlı Qələbənin bütün dünya azərbaycanlılarının qürur mənbəyi olduğunu xüsusi vurğulayan Administrasiya rəsmisi qeyd edib ki, qızıl hərflərlə yazılmış bu unudulmaz tarix dövlətimizə ərazi bütövlüyü və suverenlik bəxş etməklə Azərbaycan xalqının yaddaşına əbədi həkk olunub.

Yeni siyasi konfiqurasiya haqqında söhbət açan Ə.Vəliyev dövlət idarəetməsinin davamlı inkişafı naminə cəmiyyətdə mövcud potensialın səfərbər olunmasında siyasi partiyaların rolunu vurğulayaraq, sağlam əməkdaşlıq mühitinin sabitliyi və tərəqqini təmin edən əsas amillər olduğunu ifadə edib. Administrasiya rəsmisi 2022-ci ilin dekabrında qəbul edilmiş “Siyasi partiyalar haqqında” Qanunun əhəmiyyətindən danışarkən bildirib ki, yeni qanun ölkənin partiya sisteminin keyfiyyətcə daha böyük inkişafına zəmin yaratmaqla, bütün siyasi partiyaların ilkin imkanlarını tarazlaşdırıb və partiyaların yeni siyasi konfiqurasiyanın formalaşması prosesində aparıcı instituta çevrilməsinə xidmət edib.

2024-2025-ci illərdə keçirilən Prezident, parlament və bələdiyyə seçkilərində siyasi partiyaların fəal iştirakı haqqında danışan Ə.Vəliyev partiyaların mütləq əksəriyyətinin seçkilərdə iştirakını demokratik münasibətlərin təzahürü kimi dəyərləndirib və bu iştirakçılığın partiyaların siyasi institut kimi daha da təkmilləşməsinə və inkişafına müsbət təsirlərini qeyd edib.

Tədbirdə çıxış edən dövlət orqanlarının nümayəndələri - Milli Məclis Aparatının rəhbəri Fərid Hacıyev, Mərkəzi Seçki Komissiyası sədrinin birinci müavini Rövzət Qasımov, ədliyyə nazirinin müavini Abiddin Hüseynov, maliyyə nazirinin müavini Azər Bayramov, Hesablama Palatası sədrinin müavini Nəsir Sadıqov siyasi partiyaların fəaliyyətinin tənzimlənməsinin müxtəlif aspektlərinə toxunaraq, dövlətin mövcud istiqamətdə gördüyü işlər barəsində ətraflı məlumatlar veriblər. Tədbirdə siyasi partiya üzvlərinin reyestrinin aparılması, bu sahədə qanunvericilikdə edilmiş son dəyişikliklər, siyasi partiyaların seçkilərdə fəal iştirakı, partiyalara dövlət büdcəsindən ayrılan maliyyə yardımları, bu yardımların xərclənməsi, hesabatlılıq, partiya sədrlərinin mediadakı fəaliyyəti, onların siyasi dialoqun dərinləşməsi prosesində rolu və digər bu kimi məsələlər geniş müzakirə olunub.

Daha sonra siyasi partiya (Yeni Azərbaycan Partiyası sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov, Vətəndaş Həmrəyliyi Partiyasının sədri Sabir Rüstəmxanlı, Böyük Quruluş Partiyasının sədri Fazil Mustafa, Ədalət, Hüquq, Demokratiya Partiyasının sədri Qüdrət Həsənquliyev, Haqq Ədalət Partiyasının sədri Əli İnsanov, Azərbaycan Demokratik Maarifçilik Partiyasının sədri Elşən Musayev, Azərbaycan Xalq Partiyasının sədri Pənah Hüseyn, Milli Cəbhə Partiyasının sədri Razi Nurullayev, Azərbaycan Ümid Partiyasının sədri İqbal Ağa-zadə, Azərbaycan Milli İstiqlal Partiyasının sədri Arzuxan Əlizadə, Ana Vətən Partiyasının sədri Fəzail Ağamalı, Böyük Azərbaycan Partiyasının sədri Elşad Musayev, AĞ Partiyasının sədri Tural Abbaslı, Azərbaycan Demokrat Partiyasının sədri Sərdar Cəlaloğlu, REAL Partiyası Siyasi Komitəsinin sədri Natiq Cəfərli, Müasir Müsavat Partiyasının sədri Hafiz Hacıyev), Elm (AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutunun direktoru İlham Məmmədzadə) və media (“Yeni Müsavat” Media Qrupunun rəhbəri Rauf Arifoğlu) nümayəndələri çıxış edərək müzakirə olunan məsələlərə öz münasibətlərini ifadə edib, cəmiyyəti narahat edən məsələlərin daha səmərəli həllinin tapılmasında siyasi partiyaların rolunu vurğulayıblar.






Tədbir iştirakçıları birmənalı olaraq bəyan ediblər ki, milli maraqlar və milli birliyin qorunması naminə ölkənin bütün vətənpərvər və intellektual qüvvələrinin səfərbər olması zəruridir. Tədbirdə çıxış edən siyasi partiyaların sədrləri və təmsilçiləri ümummilli məsələlərdə hər zaman açıq əməkdaşlığa hazır olduqlarını bildirərək cəmiyyətin parçalanmasına yönəlmiş istənilən təxribatı sərt şəkildə qınayıblar.

Tədbir dövlət orqanlarının təmsilçiləri tərəfindən siyasi partiya nümayəndələrinin çoxsaylı suallarının cavablandırılması və müzakirələrlə davam edib.

İştirakçılar bu qəbildən olan tədbirlərin mütəmadi təşkilinin və hər bir siyasi təsisatın belə təşəbbüslərdə fəal iştirak etməsinin faydalı olacağını dilə gətiriblər.

Tədbirdə aşağıda adları qeyd edilən siyasi partiyalar iştirak edib:

Yeni Azərbaycan Partiyası
Vətəndaş Həmrəyliyi Partiyası
Böyük Quruluş Partiyası
Ana Vətən Partiyası
Ədalət, Hüquq, Demokratiya Partiyası
Demokratik İslahatlar Partiyası
Azərbaycan Demokratik Maarifçilik Partiyası
Milli Cəbhə Partiyası
Azərbaycan Milli İstiqlal Partiyası
Böyük Azərbaycan Partiyası
REAL Partiyası
Haqq Ədalət Partiyası
Azərbaycan Ümid Partiyası
Azərbaycan Demokrat Partiyası
Azərbaycan Xalq Partiyası
Vəhdət Partiyası
Ədalət Partiyası
Klassik Xalq Cəbhəsi Partiyası
Milli Dirçəliş Hərəkatı Partiyası
AĞ Partiyası
Azad Vətən Partiyası
Müasir Müsavat Partiyası
Gələcək Azərbaycan Partiyası
Yeni Zaman Partiyası

# Tarixi ədalətin bərpa edilməsi...

## Soydaşlarımızın öz doğma yurdlarına geri qayıtmaları beynəlxalq hüquqa əsaslanan, legitim bir tələbdir

“Qərbi Azərbaycan əsilli gənclər: Tarixi yurd və ərazinin milli kimlik məsələlərində yeri” adlı konfrans keçirilib.

Fevralın 25-də Qərbi Azərbaycan İcmasında Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin və İcmanın birgə təşkilatçılığı ilə “Konstitusiya və Suverenlik İli” çərçivəsində “Qərbi Azərbaycan əsilli gənclər: Tarixi yurd və ərazinin milli kimlik məsələlərində yeri” adlı konfrans keçirilib.

AZƏRTAC xəbər verir ki, əvvəlcə Azərbaycanın Dövlət Himni səsləndirilib. Ulu Öndər Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Konfransda Ağsaqqallar Şurasının üzvü İlqar Abasov, Gənclər Şurasının sədr müavini, Milli Məclisin deputatı Səbinə Xasayeva, Gənclər Şurasının sədri, Milli Məclisin deputatı Şahin İsmayılov, həmçinin uşaqlar və gənclər iştirak ediblər.

Qərbi Azərbaycan İcması İdarə Heyətinin sədri, Milli Məclisin deputatı Əziz Ələkbərli çıxış edərək bildirib ki, soydaşlarımız tarixi torpaqları olan Qərbi Azərbaycandan mərhələlərlə deportasiya olunub və bu proses zamanı ağır insan haqları pozuntularına məruz qalıblar. O vurğulayıb ki, soydaşlarımızın ata-baba yurdlarından zorla qovulmaları, onların fiziki və mənəvi əzablara düçar edilməsi təkcə azərbaycanlılara qarşı deyil, ümumilikdə bəşəri dəyərlərə qarşı törədilmiş cinayətdir.

Deputat qeyd edib ki, minilliklər boyu formalaşmış maddi-mədəni irsimiz Qərbi Azərbaycandakı azərbaycanlıların izlərini silmək üçün məqsədyönlü şəkildə aparılan siyasət nəticəsində məhv edilib. Tarixi abidələr dağıdılıb, toponimlər dəyişdirilib, qəbiristanlıqlar yerlə-yeksan olunub,









mədəniyyət nümunələrimiz saxtalaşdırılaraq başqa xalqlara aid edilib.

Əziz Ələkbərli vurğulayıb ki, tarixi ədalətin bərpa edilməsi, soydaşlarımızın öz doğma yurdlarına geri qayıtmaları beynəlxalq hüquqa əsaslanan, legitim bir tələbdir. O deyib ki, bu gün uşaqların və gənclərin bu məsələlər haqqında məlumatlandırılması, onların tariximizi və hüquqlarımızı dərindən bilmələri gələcək mübarizənin uğurla davam etdirilməsi baxımından olduqca vacibdir.

Vurğulanıb ki, Qərbi Azərbaycan məsələsi yalnız deportasiya olunmuş insanların deyil, bütün Azərbaycan xalqının, dünya azərbaycanlılarının problemidir. Bu səbəbdən hər bir vətəndaşımız bu məsələyə həssas yanaşmalı, tariximizin və mədəni irsimizin qorunmasına töhfəsini verməlidir.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova çıxışında tədbirin əsas məqsədinin gənclərlə fikir mübadiləsi aparmaq, onların milli-mənəvi dəyərlərə bağlılığını gücləndirmək və gələcəyimiz üçün vacib məsələləri müzakirə etmək olduğunu bildirib.

Komitə sədri qeyd edib ki, Azərbaycan xalqı birlik və həmrəylik sayəsində Qarabağda tarixi Zəfər qazanıb, bu uğurda gənclərin rolu danılmazdır. O vurğulayıb ki, Azərbaycan gəncləri ölkənin inkişafında və milli maraqların qorunmasında mühüm yer tuturlar.

B.Muradova diqqətə çatdırıb ki, Qərbi Azərbaycan mövzusu yalnız Qərbi azərbaycanlıların deyil, bütün azərbaycanlıların milli məsələsidir. O, gənclərin Qərbi Azərbaycanla bağlı həqiqətləri öyrənərək beynəlxalq ictimaiyyətə çatdırmalarının, bu məsələdə milli maraqları müdafiə etmək üçün üzərilərinə düşən tarixi məsuliyyəti dərk etmələrinin vacibliyini xüsusi vurğulayıb.

Digər çıxış edənlər Qərbi Azərbaycan həqiqətlərinin beynəlxalq ictimaiyyətə çatdırılmasının vacibliyini vurğulayıb, bu prosesdə gənclərin üzərinə düşən məsuliyyətdən danışıblar. Bildirilib ki, gənclərimiz tarixi yurd yerlərimizlə bağlı məlumatlı olmalı, milli kimlik məsələsində fəallıq göstərməli və bu həqiqətlərin dünya səviyyəsində tanıdılması üçün müxtəlif platformalarda fəal iştirak etməlidirlər.

Qeyd edək ki, konfransın əsas məqsədi Qərbi Azərbaycan haqqında tarixi həqiqətlərin uşaqlar və gənclər arasında təbliği, zəngin tarixi-mədəni irsinin təşviqi, bu istiqamətdə həyata keçirilən və keçirilməsi nəzərdə tutulan tədbirlər haqqında məlumatlandırmaqdır.

# Unutmadıq, unutmayacağıq!

## Xocalı soyqırımından 33 il ötür

Bütün varlığı ilə torpağına, yurd yerlərinə bağlı olan Azərbaycan xalqına qarşı zaman-zaman məkrli planlar qurulub. Başımıza müsibətlər gəlib, faciələrə düçar olmuşuq. Belə faciələrdən birini 1992-ci il fevralın 25-dən 26-na keçən gecə yaşamışıq.

Həmin gecə Xocalı şəhəri erməni vandalizminin növbəti ünvanı oldu, burada insan təsəvvürünə sığışmayan dəhşətli qırğınlar törədildi. Şəhər soyqırımına məruz qaldı. Keçmiş sovet ordusunun 366-cı alayının dəstəyi ilə Xocalıya hücum çəkən ermənilər cəmi bir neçə saatın içində bütün şəhəri yerlə-yeksan etdilər. Həmin qanlı tarixdən 33 il ötür...








## Holokost, Sonqmi, Lidiçe, Babi Yar, Ruanda kimi faciələrlə bir sırada dayanan Xocalı soyqırımı

Ermənilər yeri gəldi-gəlmədi özlərini dünyaya "mədəni xalq" kimi təqdim etməyə çalışırlar. Ancaq bu təbliğat mifik səciyyə daşıyır. Ermənilərin zaman-zaman Azərbaycan xalqına münasibətdə əl atdıqları qəddarlıqlar, yol verdikləri müharibə cinayətləri onların "mədəni xalq" mifində həqiqət payının sıfıra bərabər olduğunu əyani şəkildə təsdiqləyir. Xalqımız təkcə XX əsrdə ermənilər tərəfindən 1905-1906-cı, 1918-1920-ci, 1948-1953-cü və 1988-1993-cü illərdə olmaqla düz dörd dəfə dəhşətli deportasiyalara məruz qalıb.

Xocalı faciəsi də ermənilərin qəddarlığını bütün cəhətləri ilə açıb ortaya qoyur. Bu faciə dünya tarixində dinc əhalinin kütləvi qətliamı kimi dərin iz qoymuş Xatın, Holokost, Sonqmi, Lidiçe, Babi Yar, Ruanda kimi soyqırımları ilə bir sırada dayanır.

Xocalı soyqırımı zamanı 613 nəfər, o cümlədən 106 qadın, 63 uşaq və 70 qoca xüsusi qəddarlıqla öldürülüb, 1275 insan əsir və girov götürülərək işgəncələrə məruz qalıb. Onlardan 150 nəfərin, o cümlədən 68 qadın və 26 uşağın taleyi bu günədək məlum deyil. Qırğın zamanı 487 nəfər müxtəlif dərəcəli bədən xəsarətləri alıb. Həmçinin 8 ailə tamamilə məhv edilib, 130 uşaq valideynlərindən birini, 25 uşaq isə hər iki valideynini itirib. Qətlə yetirilən insanlardan 56 nəfəri xüsusi qəddarlıqla - diri-diri yandırılaraq, başının dərisi soyularaq, boynu vurularaq, gözləri çıxarılaraq, hamilə qadınların isə qarın boşluğuna süngü ilə vurularaq öldürülüb.

Tarixi abidələri ilə fərqlənən, Azərbaycan tarixinin öyrənilməsində mühüm əhəmiyyət kəsb edən qədim mədəniyyətə, strateji önəmə malik Xocalı şəhəri işğalın nəticəsində xarabalığa çevrilib. Ermənilərin insanlığa sığmayan dəhşətli cinayət əməlləri nəticəsində Xocalı şəhərində 105 sosial-məişət obyekti, 3200 fərdi yaşayış binası, 14 məktəb, 21 klub, 29 kitabxana, üç mədəniyyət evi və bir tarix-diyarşünaslıq muzeyi dağıdılıb. Bununla yanaşı, şəhərdə XIV-XV əsrə aid türbələr, günbəzlər, məzarlar yerlə-yeksan olunub, qəbiristanlıq vandallara xas üsullarla dağıdılıb, ümumiyyətlə, bu torpağın ən qədim sakinləri olan azərbaycanlılara aid bütün izlər silinib.

## Xocalı faciəsinə siyasi qiymət verilməsi

Aradan 33 il ötsə də, "Xocalı faciəsinin qarşısını almaq mümkün idimi" sualı hələ də aktual olaraq qalır. Ümumi qənaət belədir ki, bəli, mümkün idi. Hər şeyi öz adı ilə çağırmaq lazımdır. Xocalı faciəsinin günahkarları ermənilərdir. Bu, sübuta, hər hansı bir müzakirəyə ehtiyacı olmayan həqiqətdir. Ancaq faciənin baş verməsində özümüzün də məsuliyyət daşıdığımızı etiraf etməliyik. Xocalı faciəsinin baş verməsində o dövrdəki Azərbaycan iqtidarının böyük məsuliyyəti var. Həmin illərdə respublikamızda güclü hakimiyyət yox idi, həmçinin bir sıra qüvvələr iqtidara gəlmək uğrunda mübarizə aparırdılar. Belə bir vəziyyətdə 1991-ci ilin sonlarından mühasirədə qalan Xocalının müdafiəsi təşkil olunmadı, dinc sakinlər şəhərdən çıxarılmadı. Mənfur düşmən isə bundan istifadə edərək öz planlarını həyata keçirdi.

Siyasi çəkişmələrin nəticəsi idi ki, 1992-ci ilin yazında qeyri-qanuni yolla hakimiyyətə gələn AXC-"Müsavat" iqtidarı Xocalı faciəsinə hüquqi-siyasi qiymət verməyə tələsmədi. Çünki diletant cütlüyün liderləri məhz məğlubiyyətlərimiz və faciələrimiz üzərində hakimiyyətə gəlməyə nail olmuşdular. AXC-"Müsavat" iqtidarının səriştəsiz idarəçiliyi Azərbaycanı dalana gətirib çıxartdı. Ölkədə vətəndaş qarşıdurması yaranmışdı. Belə bir şəraitdə xalq ümid yeri kimi o dövrdə Naxçıvanda yaşayıb çalışan Heydər Əliyevə üz tutdu, Onun Azərbaycanın siyasi rəhbərliyinə gəlməsini təkid etdi. Heydər Əliyev çox sevdiyi xalqını ümidsiz qoymadı, onun səsinə səs verərək 1993-cü ilin yayında Bakıya gəldi və çətin vəziyyətdə olan respublikamıza rəhbərlik etməyin məsuliyyətini öz üzərinə götürdü.

Heydər Əliyevin dövlət başçısı kimi gündəmə gətirdiyi vacib məsələlərdən biri də Xocalı faciəsinə siyasi qiymət verilməsi oldu. Xocalı faciəsinin Azərbaycan xalqının qan yaddaşı olduğunu dəfələrlə bəyan etmiş Heydər Əliyev hadisələrə siyasi qiymətin verilməsinin zəruriliyini bildirdi, bu məsələnin dünya ictimaiyyətinə çatdırılması üçün xüsusi səy göstərdi. Onun təşəbbüsü ilə 1994-cü il fevralın 24-də Milli Məclis "Xocalı soyqırımı günü haqqında" qərar qəbul etdi. Prezident Heydər Əliyevin 25 fevral 1997-ci il tarixli sərəncamı ilə Xocalı soyqırımı qurbanlarının xatirəsini yad etmək məqsədi ilə hər il fevral ayının 26-sı saat 17.00-da Azərbaycan Respublikası ərazisində Xocalı soyqırımı qurbanlarının xatirəsinə ehtiram əlaməti olaraq sükut dəqiqəsi elan edilib. Həmçinin 1998-ci ildə Heydər Əliyevin müvafiq sərəncamında Xocalı faciəsi soyqırımı adlanıb. 2002-ci ildə isə Milli Məclisdə soyqırımının 10 illiyi qətnaməsində 1992-ci ilin 26 fevralında baş verənlər soyqırımı kimi tanınıb.

## Heydər Əliyev Fondu tərəfindən Xocalı soyqırımının dünyada tanıdılması

Azərbaycan xalqı Xocalı faciəsinin qurbanlarının xatirəsini həmişə uca tutur. Hər il paytaxt Bakıda və bölgələrimizdə Xocalı faciəsinin ildönümü tədbirləri yüksək səviyyədə keçirilir.

Eyni zamanda, faciənin dünya miqyasında tanıdılması istiqamətində görülən işlər geniş miqyas alıb. Xüsusilə Heydər Əliyevin adını daşıyan fond bu istiqamətdə fəal iş aparır. 2008-ci ildə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə başlanmış "Xocalıya ədalət!" beynəlxalq kampaniyası uğurla davam etdirilir. Xocalı soyqırımının dünya miqyasında tanıdılması istiqamətində aparılan sistemli işin nəticəsidir ki, İslam Əməkdaşlıq Təşkilatı Parlament İttifaqının, Meksika, Pakistan, Çexiya, Peru, Kolumbiya, Panama, Honduras, Sudan, Qvatemala və Cibuti parlamentlərinin müvafiq sənədlərində Xocalıda törədilmiş kütləvi qətllərin soyqırımı aktı olduğu təsdiq edilib. Rumıniya, Bosniya və Herseqovina, Serbiya, İordaniya, Sloveniya, Şotlandiya parlamentləri, eləcə də ABŞ-ın 22 ştatının icra və qanunvericilik orqanları Xocalı soyqırımını qətliam kimi qiymətləndirərək qətiyyətlə pisləyiblər. Bu istiqamətdə fəaliyyət gələcəkdə də davam etdirilməlidir.

## Qisas qiyamətə qalmadı

Vətən müharibəsində işğal altındakı ərazilərimizin böyük hissəsi geri qaytarılsa da, Xankəndi, Xocalı və bəzi başqa yaşayış məntəqələrində suverenliyimiz hələ də təmin olunmamışdı. Qalib Azərbaycan tarixi ərazilərimizdə, o cümlədən də Xocalıda separatizm yuvasının qalması ilə barışa bilməzdi. Buna görə də Vətən müharibəsi şanlı Zəfərimizlə başa çatandan sonra Azərbaycan cəmiyyətində haqlı suallar yaranmışdı: Bəs Xankəndi, Xocalı necə olacaq? Həqiqətən də, biz necə barışa bilərdik ki, zamanında bir gecənin içində yerlə-yeksan edilən, soyqırımı faciəsi yaşayan Xocalı separatçıların əlində qalsın. Əslində, Özünün təbirincə desək, nəyi necə və nə zaman etməyi hamıdan yaxşı bilən Prezident İlham Əliyev Xankəndinin, Xocalının və digər yaşayış məntəqələrimizin də separatçılardan təmizlənməsinin planlarını götür-qoy etmişdi. Sadəcə, O, bu planların həyata keçirilməsi üçün uyğun zamanın gəlməsini, müvafiq şəraitin yetişməsini gözləyirdi. Nəhayət, dövlətimizin başçısı 2023-cü il sentyabrın 19-da lokal xarakterli antiterror tədbirlərinin keçirilməsi ilə bağlı tapşırıqlarını verdi. Silahlı Qüvvələrimizin yüksək peşəkarlıqla həyata keçirdiyi antiterror tədbirləri cəmi 23 saat ərzində uğurla tamamlandı və separatçılar ağ bayraq qaldırmaq məcburiyyətində qaldılar. Digər yaşayış məntəqələrimiz kimi, Xocalı da azadlığına qovuşdu.

## Böyük Qayıdışın Xocalı səhifəsi...

Azərbaycan xalqı 2024-cü il mayın 28-də bir gündə iki əlamətdar hadisəyə şahidlik etdi. Necə deyərlər, bayram bayrama qarışmışdı. Həm müstəqilliyimizin 106-cı ildönümünü qeyd etdik, həm də zamanında soyuq qış gecəsində erməni vandalizminə tuş gələn, yalnız taleyin qisməti sayəsində sağ qalan, onilliklər ərzində ağır məcburi köçkünlük həyatı yaşamaq məcburiyyətində qalan soydaşlarımızın bir qrupunun Xocalıya geri dönməsinin şahidi olduq.

Əlamətdar haldır ki, Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Arzu Əliyeva mayın 28-də Xocalı şəhərində olublar və şəhərə köçən sakinlərin sevinclərini bölüşüblər. Prezident İlham Əliyev sakinlərlə görüşdə Xocalıya köçün başlamasını tarixi hadisə kimi dəyərləndirib.

Hazırda Xocalı şəhərində və rayonun yaşayış məntəqələrində bərpa-quruculuq işləri böyük sürətlə davam etdilir. Xocalıya son köç elə bu günlərdə-fevralın 24-də Ballıca kəndinə baş tutub. Köç karvanı Ağdam rayon ərazisindəki nəzarət-buraxılış məntəqəsindən 22 ailədən ibarət 95 nəfər olmaqla yola salınıb. "Əlbəttə ki, Vətən həsrəti ilə yaşamış insanlar üçün ən yaxşı şəraiti yaratmaq dövlətimizin borcudur. Mənim də Prezident kimi əsas borcum bu gün bundan ibarətdir. İşğala son qoyduq, 2023-cü ildə antiterror əməliyyatı nəticəsində bu bölgəni də işğaldan azad etdik. Ballıca və yüzlərlə digər yaşayış məntəqəsi artıq işğalçılardan tam azad olunmuşdur və indi həyatı bərpa edirik", - deyə Prezident İlham Əliyev fevralın 19-da işğaldan azad olunmuş ərazilərə növbəti səfəri çərçivəsində Ballıca kənd sakinləri ilə görüşdəki çıxışında bildirib.

***MÜBARİZ***

# Tanrının bir anlıq yuxusu - Xocalı 33!

## Dondurulmuş zaman...

Xocalıdayıq. Düz 33 il əvvəlki kimi qar yağır. Bu dəfə qar dənələri şəhidlərin cansız bədənini yox, azad Vətən torpağını ağ örpəyə bürüyür.

Hava şaxtalıdır. İçimizdəki nisgil isə bu soyuqdan da kəskindir.



Ölümün də öz səssizliyi var. Sanki sükut içində sükut yaradır. Şəhərin gur səsi, adamların tələskən addımları o qış gecəsindəki sükutu poza bilmir. O gecə Xocalıda üşüyən körpələri düşünürəm. Anasının qucağında soyuqdan donan, al qana bürünən bələkdəki günahsız körpələri.

Hava elə soyuqdur ki, əllərimizi bərk-bərk paltolarımızın cibinə salmışıq. Əllərimi üşüməsin deyə qorumağa çalışdığım üçün də utanıram. Üzümə düşən hər qar dənəsində sanki şəhidlərin soyuqdan donmuş göz yaşlarını görürəm.

Xocalı... Bu ad özündə bir millətin çəkdiyi acıları, göylərə yüksələn ah-nalələri, qırılan ümidləri, güllə yağışı altında susan arzuları birləşdirir.

Qucağında buz heykələ dönmüş körpəsi ilə əllərini səmaya açıb kömək diləyən bir ana canlanır gözlərimin önündə. Qarlı meşədə yan üstə yıxılmış bir qoca donmuş barmaqları arasında sinəsinə sıxdığı Quran kitabı ilə Allaha yalvarır.

Bu fəryadlara Tanrı da cavab vermirdi, sanki dünyanın bunca dərdlərindən yorulmuş, bir anlığa mürgüləmiş və insan övladını bir-birinə əmanət etmişdi. İnsanlar Tanrının əmanətinə sahib çıxmamış, xəyanət etmişdi.

Ol səbəb, həmin gecə təkcə Xocalı ölmədi. İnsanlıq da öldü.

Unutsaq, o gecənin dəhşət dolu çığlıqları sonsuza qədər səssizliyə qarışar...

Addım atdıqca torpaq ayaqlarımız altda titrəyir, sanki bizə nə isə pıçıldayır. Səssizcə qulaq asıram.

Burada adi daş-divarlar da bir ömürlük xatirələr daşıyır. Bax, orada bir zamanlar uşaq gülüşləri eşidilən evlər vardı. Burada analar körpələrini bağrına basıb, qorumağa çalışırdı. İndi isə torpaq onları bağrına basıb, dincəldir. Gülüşlər, sevinclər, kədərlər hamısı torpaqda dəfn olunub. Bəlkə ona görə təbiət bu qədər kədərlidir.

Xocalının qarlı küçələrində addımlayarkən bu günə qədər izlədiyim kadrlar bir-bir gözlərimin önündə canlanır. Meşənin dərinliklərində əlində oyuncaq ayı tutan bir qız uşağı var, çəkmələrini boğazına qədər örtən qara baxır və soyuqdan titrəyir. Anasının qollarına sığınmaq istəyir. Elə hey irəli addım atmaq istəyir, amma bilmir ki, qarşısında ölüm dayanır. Gözümün önündəki lentlər sürətlə dəyişir: Balaca qızcığazın ürkək baxışları, yerə düşən oyuncaq ayısı... və sonra... sonra sadəcə sükut. 28 illik bir sükut. Bəlkə buna görədir ki, Xocalıda olmaq mənə ən çətin anlardan biri kimi görünürdü.

Ətrafa baxdıqca düşünürəm ki, sanki zaman burada illərlə dondurulub. Hər şey olduğu kimi qalıb, heç nə dəyişməyib. Uşaqların yalvarış səsləri, anaların fəryadı, ataların son nəfəsindəki çarəsizliyi bu torpaqlara hopub qalıb.

Adətimdir, ürəyim sıxılanda başımı qaldırıb göy üzünə baxıram. Qar dənələri xəfif-xəfif süzülür. Elə bil şəhidlərin 33 il əvvəl göylərə çəkilən nakam ruhları bizə salama gəliblər.

Azərbaycan Ordusunun rəşadəti və ölkə rəhbərliyinin siyasəti torpaqları təkcə azad etmədi, həm də onlara yeni nəfəs verdi. Deyirlər, ana sevgisi övladların hər biri üçün bərabər paylanır. Ancaq kimin ayağı daşa dəysə, onu bağrına basır. Daş üstə daşı qalmayan Xocalının bu gün ən incinmiş, ən yaralı övlad kimi xüsusi diqqətdə saxlanması da təəccüblü deyil.

Azərbaycan Ordusunun mübarizliyi, xalqın möhkəm birliyi və Prezident İlham Əliyevin qətiyyətli siyasəti sayəsində Xocalı şəhəri işğaldan azad olundu. Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında həyata keçirilən hərbi əməliyyatlar yalnız döyüş meydanında deyil, həm də diplomatik sahədə Azərbaycanın mövqeyini möhkəmləndirdi. Xocalı qurbanlarının intiqamı haqq və ədalət uğrunda verilən bu mübarizədə alındı.

Azərbaycan dövləti Xocalı faciəsinin unudulmaması və gələcək nəsillərə çatdırılması üçün bu gün də ardıcıl tədbirlər həyata keçirir. "Xocalıya ədalət!" kampaniyası, bu faciənin həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında əhəmiyyətli bir rol oynayır.

Xocalının bərpası prosesinin özü də Azərbaycanın gücünü və iradəsini dünya səhnəsində göstərən əlamətdar bir mərhələdir. Bu, yalnız şəhərin fiziki infrastrukturunun yox, həm də Xocalıda həyatın, mədəniyyətin, təhsilin, iqtisadiyyatın və sosial fəaliyyətin yenidən canlanması deməkdir. Şəhərin bərpası insanların öz yurdlarına qayıdıb, orada yeni bir həyat qurmasına şərait yaradır. Xocalı sakinlərinin qayıdışı ilə onların doğma torpaqlarında öz həyat tərzləri bərpa edilir.



Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın Xocalı şəhərinə səfərləri, sakinlərlə sərbəst şəkildə gəzmələri, səmimi söhbət etmələri, sakinlərin evində qonaq olmaları dünyanın nəzər-diqqətini bu dəfə qəhrəman Xocalıya yönəldir.

Qəlbimizin bir tərəfində 33 il əvvəl bu günü xatırlayıb qəmləniriksə, bir tərəfdən də fərəhlənirik. Çünki körpə yaşda həyatlarına son qoyulan körpələrin yerini indi ata-babalarının Xocalıdakı evlərindən çıxıb hər səhər məktəbə gedən uşaqlar alıb.

***Günel ABBAS***



# Regionun nəhəng qeyri-hökumət təşkilatı kimi...

## Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva 4-cü Ər-Riyad Beynəlxalq Humanitar Forumunda iştirak edib



Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva fevralın 24-də işinə başlayan 4-cü Ər-Riyad Beynəlxalq Humanitar Forumunda iştirak edir.

AZƏRTAC xəbər verir ki, Kral Salman Humanitar Yardım və Qayğı Mərkəzinin rəhbəri Abdullah Ər-Rabiənin dəvəti ilə forumda təmsil olunan Leyla Əliyeva "Qlobal humanitar könüllülük: perspektivlər və hədəflər" adlı paneldə çıxış edərək Heydər Əliyev Fondu tərəfindən Azərbaycanda və digər ölkələrdə həyata keçirilən humanitar layihələr barədə məlumat verib.

Ər-Riyad şəhərində iki Müqəddəs Ocağın Xadimi, Səudiyyə Ərəbistanının Kralı Əlahəzrət Salman bin Əbdüləziz Al Səudun himayəsi altında, Kral Salman Humanitar Yardım və Qayğı Mərkəzinin təşkilatçılığı ilə keçirilən forumda müzakirələr zamanı humanitar diplomatiya, fövqəladə hallarda media və kommunikasiya strategiyası, süni intellektin humanitar yardım fəaliyyətində rolu, beynəlxalq hüquq çərçivəsində humanitar yardım sahəsində mövcud problemlər və gələcək imkanlar müzakirə edilir.

Leyla Əliyeva forumun gündəliyindəki məsələlərin qlobal əhəmiyyətini vurğulayaraq, Azərbaycanın müstəqilliyini yenidən əldə etdikdən sonra aparılan uğurlu siyasət nəticəsində humanitar yardım alan dövlətdən donor dövlətə çevrildiyini bildirib. Heydər Əliyev Fondunun regionun nəhəng qeyri-hökumət təşkilatı kimi 2004-cü ildən genişmiqyaslı humanitar layihələr həyata keçirdiyini qeyd edib. Fondun bir sıra istiqamətlərdə fəaliyyətini önə çəkən Leyla Əliyeva təhsil, səhiyyə və sosial sahələr üzrə layihələrin beynəlxalq səviyyəni əhatə etdiyini, bu fəaliyyətin tərəfdaş təşkilatlar və ölkələr tərəfindən yüksək qiymətləndirildiyini bildirib.

Leyla Əliyeva müasir dünyada iqlim dəyişiklikləri kimi böhrana diqqət çəkərək ətraf mühitin və təbiətin qorunması istiqamətində, eləcə də aclığın aradan qaldırılması kimi problemlə üzləşən ölkələrə yardım sahəsində güclərin səfərbər olmasının vacibliyini vurğulayıb.

Heydər Əliyev Fondunun vitse-prezidenti Azərbaycanın könüllülük fəaliyyəti üzrə uğurlu modelə sahib olduğunu bildirərək, mövcud humanitar problemlərin həllində könüllülük proqramlarının inkişaf etdirilməsinin əhəmiyyətini qeyd edib.

Qeyd edək ki, fevralın 24-25-də keçirilən forumda bir sıra ölkələrin yüksəksəviyyəli rəsmiləri, Ümumdünya Səhiyyə Təşkilatı, Beynəlxalq Miqrasiya Təşkilatı, Beynəlxalq Qırmızı Xaç Cəmiyyəti, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı, BMT-nin Uşaq Fondu və digər nüfuzlu beynəlxalq təşkilatların rəhbərləri, donor təşkilatlar, beynəlxalq ekspertlər və tədqiqatçılar təmsil olunur.

# Fransız səfir Ermənistanın "vəkili" rolunda

Fransa Azərbaycana qarşı qərəzli mövqeyini davam etdirir. Rəsmi Paris Ermənistanın maraqlarına xidmət edərək ölkəmiz haqqında böhtan kampaniyası aparır. Fransanın Ermənistandakı səfiri Olivye Dekotinyi də diplomatik etiket qaydalarını unudaraq dəfələrlə Azərbaycana qarşı yalan və böhtanlardan ibarət fikirlər səsləndirib. Halbuki onun vəzifəsi təmsil etdiyi ölkə ilə səfir kimi çalışdığı dövlətin əlaqələrinə xidmət etməlidir. Amma Dekotinyi vəzifə səlahiyyətlərini aşaraq Ermənistanın "vəkili" funksiyasını yerinə yetirməkdədir.



## Olivye Dekotinyinin yalanları

O, bugünlərdə Ermənistanın "İctimai radiosu"na müsahibəsində Azərbaycanın əleyhinə əsassız iddialar səsləndirib. Dekotinyi müsahibəsində Paşinyan-Makron görüşünün son mesajlarından, 2025-ci ildə hərbi sahədə əməkdaşlıq çərçivəsində görüləcək işlərdən və rəsmi Bakıdan səsləndirilən bir sıra bəyanatlardan bəhs edib. Səfir Zəngəzur dəhlizi, Ermənistanda Avropa İttifaqının müşahidə missiyasının fəaliyyəti, ATƏT-in Minsk qrupunun "gələcəyi" və Zəngəzurda Fransanın "fəxri konsulluğunun" açılması planlarına da toxunub. Diplomat biraz da irəli gedərək rəsmi İrəvanın əvəzinə 1991-ci il Almatı Bəyannaməsindən də danışıb, hətta "Qarabağ ermənilərinin təhlükəsiz qayıdışının hansı effektiv mexanizmlə təmin oluna biləcəyi" barədə "tövsiyə" verməyi də "unutmayıb".



## XİN: Fransa beynəlxalq hüququn norma və prinsiplərinə hörmətsizlik göstərir

Məsələyə Azərbaycanın Xarici İşlər Nazirliyi münasibət bildirib. Nazirliyin mətbuat katibi Ayxan Hacızadə deyib ki, Fransanın Ermənistandakı səfiri Olivye Dekotinyinin növbəti dəfə ərazilərimizin işğalına və separatçılığa son qoyan Azərbaycanın legitim tədbirlərini sual altına alması, Azərbaycanı Ermənistanın ərazilərini işğalda təqsirləndirməsi, Ermənistanın hərbiləşməsini təşviq etməsi, Beynəlxalq Ədalət Məhkəməsinin qərarlarına yanlış istinadlar verməsi, Ermənistanın "yarımçıq sülh" fikirlərini dəstəkləyən açıqlamalar və bir sıra digər absurd yanaşmalar sərgiləməsi, ilk növbədə, Fransa tərəfinin reallıqları necə təhrif etdiyini, bölgədə dayanıqlı və həqiqi sülh quruculuğunda maraqlı olmadığını bir daha nümayiş etdirir. Onun sözlərinə görə, Fransa səfirinin açıqlamaları təmsil etdiyi ölkənin həm münaqişə, həm də postmünaqişə dövründə güddüyü niyyətin və apardığı siyasətin əsl mahiyyətini sübut edir.

XİN rəsmisi bildirib ki, səfirin Ermənistan-Fransa münasibətlərindən daha çox Azərbaycan əleyhinə qarayaxma kampaniyasına köklənməsinin qarşısının alınması istiqamətində Fransanın Avropa və Xarici İşlər Nazirliyi tərəfindən tədbir görülməməsi, ilk növbədə, Fransa xarici siyasətinin uğursuzluğunun nəticəsidir. "Xüsusilə qeyd edək ki, sülh müqaviləsinin Almatı Bəyannaməsinin prinsiplərinə söykənməsi zərurətinə istinad edən Fransa səfirinin Ermənistanın bu bəyannaməyə irəli sürdüyü qeyd-şərtində Azərbaycan ərazilərinə qarşı hələ də davam edən iddialarını, Azərbaycan ərazilərini işğal etdiyini unutdurmağa çalışması qəbuledilməzdir. Bununla yanaşı, 33 il müddətində Ermənistan tərəfindən işğal altında saxlanılmış Qazaxın dörd kəndinin qaytarılmasına Azərbaycan tərəfindən qarşılıq verilməsinin vacib olduğu barədə səslənmiş əsassız fikir Fransa tərəfinin beynəlxalq hüququn norma və prinsiplərinə göstərdiyi hörmətsizliyin bariz nümunəsidir", - deyəsn A.Hacızadə vurğulayıb ki, Fransa tərəfi əgər sülh və sabitlikdə maraqlıdırsa, bu kimi absurd yanaşmalara və açıqlamalara son qoymalıdır.

## Parisin gerçək niyyəti məlumdur

Göründüyü kimi, 30 il ərzində Ermənistanın işğalçı siyasətinin nəticələrinə biganə qalan Fransa indi öz ərazi bütövlüyünü və suverenliyini bərpa etmiş Azərbaycan haqqında əsassız olaraq dezinformasiya yayır. Rəsmi İrəvanın da Qarabağın Azərbaycan ərazisi olduğunu etiraf etdiyi halda, Paris mütəmadi olaraq reallıqları təhrif etmək üçün canfəşanlıq edir. Eləcə də, Fransa Avropa İttifaqının müşahidə missiyası adı altında öz casuslarını Ermənistanla Azərbaycan arasındakı şərti sərhəddə yerləşdirib.

Yeri gəlmişkən, Fransanın Ermənistandakı səfiri Olivye Dekotinyi dəfələrlə Azərbaycanla sərhədə gəlib, hansısa "təftiş" aparmağa çalışıb. Eləcə də, Ermənistana səfər edən Fransa rəsmiləri və deputatları da Avropa İttifaqının Ermənistandakı müşahidəçilər missiyasının üzvləri ilə birlikdə Azərbaycanla sərhəddə olublar. Bir müddət əvvəl isə missiyanın avtomobil karvanında Aİ-nin bayrağı ilə yanaşı, Fransa bayrağının da olması rəsmi Parisin gerçək niyyətini aşkara çıxarmış oldu.

Beləliklə, Fransa Cənubi Qafqazla bağlı məkrli planlar həyata keçirməyə çalışır. Rəsmi Parisin qərəzli mövqeyi Cənubi Qafqaz regionunda vəziyyətin gərginləşməsinə xidmət edir, sülh gündəliyinin həyata keçirilməsinə, iki ölkə arasında münasibətlərin normallaşmasına zərbə vurur.

*Nardar BAYRAMLI*

# Saxta "sülhpərvər"...

## İcma Mirzoyanın yalan və unutqanlığını ifşa edib

Ermənistanın davranışları onun sülhə maraqlı olmadığını nümayiş etdirir. Bu ölkənin xarici işlər naziri Ararat Mirzoyanın BMT-nin İnsan Hüquqları Şurasının 58-ci sessiyasının iclasındakı çıxışında səsləndirdiyi fikirlər də bunu təsdiqləyir. Nə qədər paradoksal olsa da, Mirzoyan ölkəmizin sülhə maraqlı olmadığını deyib, Azərbaycanda hazırda məhkəmələri davam edən bir qrup müharibə cinayətkarına haqq qazandıran, insan hüquqları anlayışına zidd və bölgədə sülh səylərinə mane olan fikirlər səsləndirib. O iddia edib ki, guya Azərbaycandan verilən bəyanatlar Ermənistanın ərazi bütövlüyünü şübhə altına qoyur. Mirzoyan burada 1991-ci il Almatı Bəyannaməsinə istinad edib. Sual olunur, əgər Ermənistan bu sənədə sadiq idisə, niyə onun imzalanmasından qısa müddət sonra Azərbaycan torpaqlarının 20 faizini işğal etdi?




## Yalan üzərində qurulmuş çıxış...

Görünən odur ki, erməni tərəfi beynəlxalq ictimaiyyəti aldatmaq "ənənəsindən" əl çəkməyib. Mirzoyan çıxışı zamanı yalanlarını davam etdirərək söyləyib: "Ermənistan regionumuzda sülh və sabitliyin bərqərar olması missiyasına sadiq qalır, bu yöndə Azərbaycan tərəfinə bir neçə təkliflər verib. O cümlədən, sülh müqaviləsi, nəqliyyat infrastrukturunun açılması, silahların qarşılıqlı nəzarəti və yoxlama mexanizmi və digər kontekstlərdə bütün əsas problemləri həll edən müqavilənin imzalanmasını istəyirik. Məhz bu kontekstdə mən yenidən erməni tərəfinin düşmənçiliyin səhifəsini çevirərək institusionalizə olunmuş sülh qurmağa hazırlığını təsdiqləmək istəyirəm. Biz bu işə hazırıq və bu yoldan kənara çıxmayacağıq". Əlbəttə ki, belə fikirləri erməni nazirdən eşitmək gülünc olduğu qədər də, absurddur. 30 il ərzində torpaqlarımızı işğal altında saxlayanda da erməni tərəfi sülhdən ağız dolusu danışırdı. İndi də Paşinyan hakimiyyəti özünü "sülh göyərçini" kimi təqdim etməyə çalışır. Reallıq isə bundan ibarətdir ki, Ermənistan sülh amilindən manipulyasiya məqsədilə istifadə edir.

Yeri gəlmişkən, Qərbi Azərbaycan İcması A.Mirzoyanın məlum çıxışı ilə bağlı bəyanat verib. Bəyanatda bildirilir ki, erməni nazir A.Mirzoyanın, ölkəsinin 1992-ci il fevralın 25-26-da törətdiyi Xocalı soyqırımının ildönümündə həmin soyqırımını törətməkdə təqsirli bilinənlərin işi üzrə ədalət mühakiməsinə xələl gətirməyə çalışması soyqırımı qurbanlarının ruhuna hörmətsizlikdir. Qeyd olunub ki, A.Mirzoyanın Azərbaycandan köçmüş ermənilərin məsələsini qaldırması və BMT-nin insan hüquqları mexanizmlərini bu məsələyə

## İcma: Mirzoyanın fikirləri riyakarlıqdır

cəlb etməyə çalışması isə növbəti riyakarlıqdır. Ermənistanın insan hüquqları sahəsində üzərinə düşən əsas vəzifəsi ərazisindən zorla çıxardığı Qərbi azərbaycanlıların sülh yolu ilə, təhlükəsiz və ləyaqətli şəkildə qayıdışına imkan yaratmaqdır.

"Tez-tez 1991-ci il Almatı Bəyannaməsinə istinad edən Ermənistan hökumətinin diqqətinə çatdırmaq istərdik ki, Ermənistan həmin bəyannaməni imzaladıqdan sonra Azərbaycana qarşı hücumlarını daha da genişləndirərək ölkənin 20 faizini işğal edib və 800 minə yaxın azərbaycanlını etnik təmizləməyə məruz qoyub. Sülh hansısa sənədə istinad etməklə deyil, konkret addımlar atmaqla əldə olunur. Ermənistanın sürətlə silahlanması və maneəsiz tranzitə şərait yaratmaq öhdəliyini yerinə yetirməməsi sülhə xidmət etmir. Bütün bunlar bir daha sübut edir ki, Ermənistan hökuməti sülhün və insan hüquqlarına hörmətin bərqərar olunmasında maraqlı deyil",- deyə bəyanatda vurğulanıb. Qərbi Azərbaycan İcması Ermənistan hökumətindən qeyri-konstruktiv siyasətinə son verməyi, etnik təmizləməyə məruz qoyduğu azərbaycanlıların Ermənistana qayıdışına şərait yaratmağı və sülh üçün üzərinə düşən addımları atmağı tələb edib.

## Erməni nazir Qərbi azərbaycanlıların hüquqlarından danışmağı niyə "unudur"?

Ümumiyyətlə, Mirzoyan nədənsə çıxışında vaxtilə Ermənistandan zorla qovulmuş yüzminlərlə azərbaycanlının hüquqlarının bərpasından danışmağı "unudub". Halbuki Qərbi azərbaycanlılarının doğma yurdlarına qayıtması onların fundamental haqqıdır və bu da beynəlxalq hüquqla təsbit olunub. İnsan Hüquqları Ümumi Bəyannaməsində, Mülki və Siyasi Hüquqlar Haqqında Beynəlxalq Pakt, BMT-nin Qaçqınların Statusuna dair 1951-ci il Konvensiyası və 1967-ci il Protokolu və digər sənədlərdə həmin hüquq öz əksini tapıb. BMT-nin insan hüquqları və beynəlxalq hüquq sahəsində qəbul etdiyi mühüm prinsiplərdən biri olan qayıdış hüququ Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 13-cü maddəsinin 2-ci bəndində qeyd olunur. Bu bənddə açıq mətnlə deyilir ki, "Hər kəsin öz ölkəsi daxilində sərbəst hərəkət etmək və yaşayış yeri seçmək hüququ var" və "hər kəsin öz ölkəsinə qayıtmaq hüququ var".

Ermənistan azərbaycanlı icmasının bərabər hüquqlarını təmin etməli, onların ana dillərində təhsil almasına, qanunvericilik, icra və məhkəmə orqanlarında Azərbaycan dilindən istifadəsinə imkan yaratmalı və azərbaycanlıların hüquqlarının qorunmasını tam təmin etməlidir. Bütün bunların reallaşması üçün müvafiq beynəlxalq qurumların hüquqi məsləhət, monitorinq və nəzarət mexanizmi çərçivəsində İcma ilə konstruktiv dialoqa başlanmalıdır. İstənilən halda, Qərbi Azərbaycandan qovulmuş azərbaycanlılar öz vətənlərində yaşamaq hüququna malikdirlər, bu hüquq əzəlidir, toxunulmazdır, mütləqdir və həlledici faktordur.

Eləcə də, indiki Ermənistan ərazisində azərbaycanlılara məxsus tarixi, mədəni və dini irs qorunmalıdır. Ümumiyyətlə, mədəni irsin qorunması təkcə beynəlxalq humanitar hüququn deyil, həm də Ümumdünya İnsan Hüquqları Bəyannaməsində qəbul edilən əsas hüquqlarının təmin edilməsindən irəli gələn tələbdir. Mədəni hüquqların, yəni bütün müxtəlifliyi ilə insan yaradıcılığının və onun həyata keçirilməsi, inkişaf etdirilməsi, əlçatan edilməsi, qorunub saxlanılması və mühafizəsi üçün şəraitin təmin edilməsi əsas hüquqlarımızın ayrılmaz bir hissəsidir. Bu baxımdan, Ermənistan Qərbi azərbaycanlıların qayıdışından əvvəl, qayıdış dövründə və sonra bu hüquqları təmin etmək üçün öhdəlik daşıyır. Bütün bunları nəzərə alaraq, mədəni irsimizin bərpası və qorunmasında beynəlxalq təşkilatlar, xüsusilə UNESCO öz dəstəyini verməlidir.

*Nardar BAYRAMLI*

# Gecikmiş addım, yaxud...

Fevralın 25-də Rusiya-Ukrayna müharibəsinin üçüncü ildönümü ilə əlaqədar Avropa İttifaqı ölkələrinin təşəbbüsü ilə BMT Baş Assambleyasında fövqəladə sessiya keçirilib - sessiyanın sonunda Rusiya qüvvələrinin Ukraynadan dərhal çıxarılmasını və müharibənin dayandırılmasını tələb

## Tövsiyə xarakteri daşıyan qətnamə

edən qətnamə qəbul olunub. Səsvermə zamanı qətnamə 93 lehinə, 18 əleyhinə səslə təsdiqlənib, 65 ölkə isə səsvermədə birtərəf qalıb. ABŞ və Rusiya qətnamənin əleyhinə səs verib.

Sözügedən qətnamədə vurğulanıb ki, Rusiya-Ukrayna müharibəsi 3 il davam edir və bu, təkcə Ukrayna üçün deyil, həmçinin digər regionlar və qlobal təhlükəsizlik üçün də ciddi təhlükə yaradır. Aİ-nin üzv ölkələri tərəfindən irəli sürülən sənəddə müharibənin dərhal son qoyulması və rus qoşunlarının Ukraynanın beynəlxalq səviyyədə tanınmış sərhədlərindən tamamilə çıxarılması tələb olunur. Qeyd edək ki, BMT Baş Assambleyasında qəbul edilən qətnamələr tövsiyə xarakteri daşıyır və hüquqi cəhətdən məcburi qüvvəyə malik deyil - bundan əvvəl də - 2014, 2022 və 2023-cü illərdə Baş Assambleyada Ukraynanın ərazi bütövlüyü və suverenliyi ilə bağlı qətnamələr qəbul olunub.

Qətnamə Tramp administrasiyası tərəfindən birmənalı qarşılanmayıb - Dövlət Departamentinin katibi Marko Rubio "Breitbart News"a müsahibəsində bildirib ki, BMT Baş Assambleyasının düşmənçilik xarakterli qətnamələri Ukraynadakı münaqişənin həllinə kömək etmir.

"Düşünürük ki, münaqişənin hər iki tərəfinə qarşı olan bir qətnamənin BMT-də qəbul edilməsi həlli asanlaşdırmayacaq", -deyə Rubio vurğulayıb.

## Qətnamənin müsbət təsiri olacaqmı?

Məsələ ilə bağlı politoloq Asif Nərimanlı "Yeni Azərbaycan" qəzetinə şərhində qeyd edib ki, bu qətnamə mövqe nümayiş etdirmək üçün irəli sürülüb:

"BMT Baş Assambleyasında bir sıra regional münaqişələrlə bağlı saysız-hesabsız qətnamələr qəbul olunub. Amma onların heç birinin icra mexanizmləri olmayıb. O ki qaldı Baş Assambleyanın yeni qətnaməsinə, kifayət qədər gecikmiş bir addımdır. Artıq Rusiya ilə Ukrayna arasındakı müharibənin üçüncü ili başa çatır. Faktiki olaraq, Rusiya Ukraynanın kifayət qədər ərazisinə nəzarət edir. Bundan əlavə, Ukraynanın bir sıra şəhərləri müharibə nəticəsində darmadağın olub. Belə bir zamanda BMT-nin Baş Assambleyasında bu cür qətnamələrin irəli sürülməsi Ukraynada müharibənin dayandırılmasından daha çox Qərb yarımkürəsindəki müəyyən dairələrin maraqlarına xidmət edir. Yəni onlar bununla mövqe nümayiş etdirirlər. Bildiyimiz kimi, bu gün Tramp administrasiyasının Ukrayna məsələsində mövqeyi Avropa İttifaqının mövqeyi ilə ziddiyyət təşkil edir. Hətta ABŞ Aİ-ni Ukrayna münaqişəsinin nizamlanması üzrə danışıqlar prosesindən kənar edib".



Politoloq, həmçinin vurğulayıb ki, bu qətnamənin hər hansı faydasının olacağı ehtimalı azdır: "Baş Assambleyanın digər qətnamələri kimi bu qətnamənin də icra mexanizmləri olmayacaq". A.Nərimanlının sözlərinə görə, bu cür qətnamələr yalnız diplomatik danışıqlarda istifadə bilər: "Əgər Ukraynadakı münaqişə dondurulub Moskva ilə danışıqlar prosesi başlayacaqsa, bu halda Ukrayna tərəfi danışıqlar masasında Rusiyanın onun ərazilərindən çıxmasını tələb etmək üçün bu qətnaməni irəli sürəcək. Amma əsas məsələ burasındadır ki, Rusiya ilə Ukrayna arasında müharibənin nə zaman sona çatacağı, xüsusilə Kiyevin münaqişənin nizamlanması üzrə keçiriləcək danışıqlarda rolunun nə olacağı bəlli deyil. Bu gün ABŞ Zelenski hakimiyyətinə tələblərini qəbul etdirmək üçün ona təzyiqlər edir. Tələblərin icra olunmadığı təqdirdə Zelenskinin hakimiyyətdən uzaqlaşdırılması məsələsi var. Hər halda hesab edirəm ki, danışıqlar prosesində Vaşinqton və Moskvanın mövqeyi üstünlük qazanacaq. Ukraynanın gələcəyi müəmmalıdır".

## Vaşinqtonun niyyəti ciddidir

A.Nərimanlı qeyd edib ki, Tramp administrasiyasının BMT ilə bağlı mövqeyi bir sıra geosiyasi hədəflərə söykənib: "ABŞ-ın BMT-nin üzvlüyündən çıxması məsələsi Trampın birinci hakimiyyəti dövründə də gündəmə gəlib. Amma Konqres bunu qətiyyətlə rədd etdi. Trampın Ağ Evə qayıtmasından sonra yenidən bu məsələnin gündəmə gəlməsi Vaşinqtonun niyyətinin nə qədər ciddi olduğunu göstərir. Ancaq bu məsələyə mövcud şərtlər daxilində baxmaq lazımdır. Trampın BMT ilə bağlı mövqeyi onun cari dövrdə atacağı addımlara hesablanıb. Onun hədəflərinə Ukrayna da daxildir - Tramp administrasiyası BMT-də Ukrayna münaqişəsi ilə bağlı qətnamələrin öz mövqeyinə uyğun təsdiqlənməsini istəyir. Yəni Rusiya işğalçılıqda ittiham olunmamalıdır və münaqişənin sona çatması üçün Kiyev və Moskva ortaq məxrəcə gəlməlidir". Ardınca politoloq əlavə edib: "ABŞ Ukrayna və onun üçün geostrateji əhəmiyyət kəsb edən digər məsələlərdə öz məqsədlərinə çatmaq üçün BMT-dən çıxmaq məsələsindən təzyiq vasitəsi kimi istifadə edə bilər".

***Yunis ABDULLAYEV***

---

Yaxın keçmişədək dünyanın bir sıra regionlarının ehtiyac icində yaşayan əhalisi Avropanı cənnət adası kimi xəyal edirdi. Müxtəlif səbəblər üzündən öz ölkələrində ağır məhrumiyyətlərlə üzüzə qalan insanlar Avropaya ayaq basmağı, burada iş və sığınacaq tapmağı çətinliklərdən qurtulmağın yeganə yolu sanırdılar.

Eyni zamanda, Avropanın özündə də gəlmələrə və yaxud miqrantlara böyük ehtiyac var idi.

# Avropanın sərt üzü: Miqrantlar hara üz tutsunlar?

Avropa İttifaqı (Aİ) məkanında getdikcə artan demoqrafik böhran və güclü sənaye inkişafı kəskin təzad yaradırdı - işçi qüvvəsinə artan tələbat ödənilmirdi. Belə bir şəraitdə boşluğu miqrantlar hesabına doldurmaq ən ideal yol kimi görünürdü.

## Aİ məkanının miqrantların əleyhinə olan yeni reallıqları

Bu gün Avropa İttifaqı məkanında bir sıra yeni reallıqlar yaranıb və yaxud yaranmaqdadır ki, onlar da miqrantların əleyhinədir. Burada iqtisadiyyatda istehsal həcmlərinin azalması və digər mənfi amilləri xüsusi qeyd etmək istərdik. Son dövrlərdə bütün dünyada olduğu kimi, Aİ məkanında da iqtisadi inkişaf üçün münbit şərait olmayıb. Yaşanan bir neçə iqtisadi böhran dalğası geriləmənin əsas səbəblərindən biridir. Bundan sonra yeni növ koronavirus pandemiyası dövründə ölkələrin sərt qapanmalara getmələri təchizat-satış zəncirində qırılmalar yaratdı. Bunun ardınca yeni müharibə ocaqları yarandı. Söhbət Aİ məkanından gedirsə, burada Rusiya-Ukrayna müharibəsinin birbaşa təsirini xüsusi qeyd etmək lazım gəlir. Onilliklər ərzində Aİ ölkələri ilə müharibənin hər iki iştirakçı dövləti arasında sıx iqtisadi əlaqələr yaranmışdı. Həm Rusiya, həm də Ukrayna bir sıra mühüm pozisiyalar üzrə Avropanın xammal təchizatçıları idilər. İndi isə Ukraynanın limanlar üzərindən xarici bazarlara çıxış imkanları məhdudlaşıb. Rusiya isə elə Aİ-nin özündən gələn sərt sanksiyalar altındadır. Həmin sanksiyalar Rusiya neftinin, qazının, bir sıra əlvan metallarının, bərk yanacağının və digər malllarının Avropa bazarlarına ixracının qarşısını alıb. Bundan itirən isə yalnız Rusiya deyil. Hazırda Avropanın enerji təchizatında ciddi çətinliklər yaşanır.



Bu kimi arzuolunmaz reallıqlar fonunda iqtisadiyyatların kiçilməsi və digər mənfi tendensiyaların yaran-

Hazırda Avropa İttifaqına üzv ölkələrin cəmi dövlət borcu ümumi daxili məhsulun (UDM) 81,5 faizinə bərabərdir. Avropa Statistika Ofisinin (Avrostat) məlumatına görə, 6 ölkənin dövlət borcu ÜDM-in 100 faizini ötüb. Ən yüksək borc səviyyəsi Yunanıstanda qeydə alınıb. Burada dövlət borcu ÜDM-in 163,6 faizinə bərabərdir. Növbəti yerləri Fransa (112,2 faiz), Belçika (108 faiz), İspaniya (105,3 faiz) və Portuqaliya (100,6 faiz) bölüşür.

Aparılan müstəqil sorğuya əsasən, avrozonada investorların inam indeksi bir ildən çoxdur ki, aşağı olaraq qalır. Ötən ilin dekabrında mənfi 17,5 olan investorların inam indeksi cari ilin yanvarında azalaraq 17,17 olub. Beləliklə, indeks 2023-cü ilin noyabrından bəri ən aşağı səviyyəyə düşüb. Cari vəziyyət indeksi isə mənfi 28,5-dən mənfi 29,5-ə geriləyərək 2022-ci ilin oktyabrından bu vaxtadək ən aşağı səviyyəyə çatıb.

İqtisadi geriləmələr və digər problemlər fonunda sağçı təmayüllərin önə çıxması, irqçiliyin, ksenofobiya hallarının artması da da bugünkü Avropanın miqrantlar üçün arzuolunmaz reallıqlarından biridir. Belə vəziyyət əsasən Avropa İttifaqı sakinlərinin Brüsselin mövcud miqrasiya siyasətindən narazılığı, Şərqi Avropadakı müharibədən yorğunluq, eləcə də mərkəzçilərin artan iqtisadi çətinliklərin öhdəsindən gələ bilməməsi ilə bağlıdır.

## Avropanın günahı...

Getdikcə dərinləşən iqtisadi tənəzzül və sağçı təmayüllərin təzyiqləri fonunda Avropa ölkələri özləri ilə bərabər əlavə problemlər gətirən miqrantlara qarşı qanunları sərtləşdirirlər. Ötən ilin birinci yarısında Avropa İttifaqı Şurası Aİ-nin miqrasiya standartlarının sərtləşdirilməsini özündə ehtiva edən Miqrasiya və Sığınacaq üzrə Paktı təsdiqləyib. "Aİ Şurası Avropanın miqrasiya siyasətinin köklü islahatını təsdiqləyib. Buraya qaçqınların nizamlı şəkildə gəlişini tənzimləməyə, səmərəli və vahid prosedur yaratmağa və yükün ədalətli bölüşdürülməsini hədəfləyən bir sıra qaydalar daxildir", - deyə sözügedən qurumun mətbuat xidmətinin bəyanatında bildirilib. Pakt həmçinin sığınacaq və ya yaşayış icazəsi verilməyən bütün şəxslərin Avropa ölkələrindən qovulması prosedurunu sadələşdirir.

Avropada milli səviyyədə artan miqrasiyanın qarşısını almağa yönələn qanun qəbul edən ölkələrdən biri Fransa oldu. Bu ölkədə etirazlarla qarşılanan müvafiq qanun 2023-cü ilin sonlarında qəbul edilib.

Fransanın ardınca Almaniya da miqrantlara qarşı mübarizəni sərtləşdirməyə qərar verib. Ötən il Solingen və Maqdeburq şəhərində baş verən terror aktlarından sonra bu ölkədə miqrantlara münasibət daha da aqressiv hal alıb.

Eyni zamanda, Almaniyada Ukraynadan olan qaçqınlara da münasibətin dəyişdiyi müşahidə edilir. Almaniyanın bəzi federal əyalətlərinin baş nazirləri ukraynalı qaçqınlara müavinətlərin ödənilməsinə yenidən baxılmasının tərəfdarıdırlar.

Beləliklə, Yaxın Şərqin, Afrikanın, kiçik ada dövlətlərinin müharibələrin, müstəmləkəçiliyin, iqlim dəyişmələrinin çətin sınaqları ilə üz-üzə qalan sakinlərinin Avropanın timsalında özlərinə cənnət xəyalları qurmaları puç olmaqdadır. Onların üzləşdikləri problemlərə görə heç bir günahları yoxdur. Bəhs olunan ərazilərdəki ölkələr məhz kollektiv Qərbin apardığı siyasətə görə müharibələrə cəlb olunublar. Kiçik ada ölkələrinin iqlim problemləri böyük dövlətlərdə gedən güclü sənayeləşmə prosesindən qaynaqlanır. Həmçinin Avropanın Fransa, Niderland kimi dövlətləri XXI əsrin üzqarası siyasətindən - müstəmləkəçilikdən əl çəkmirlər, öz nəzarətlərində saxladıqları ərazilərdə yerli xalqların ölkələrinin sərvətlərindən bəhrələnmələrinə imkan vermirlər. Təzadlı mənzərə yaranır - Avropa bir tərəfdən istismaçılıq, talançılıq, milli dövlətlərə təzyiq siyasətindən əl çəkmir, digər tərəfdən öz rahatlıqlarını güdərək qapılarını həqarətlə "gəlmələr" adlandırdıqları insanların üzlərinə bağlayırlar. Bəs belə vəziyyətdə miqrantlar nə etməlidirlər, hara üz tutmalıdırlar?

***Mübariz FEYİZLİ***

# Siyasi səhnənin iştirakçıları dəyişir...

## Almaniyada sosial demokratlar zəifləyib, sağçılar isə ilk dəfə ikinci olub

**Merkeldən sonra CDU/CSU ilk dəfə qələbə qazanıb**

Fevralın 23-də Almaniyada parlament seçkiləri keçirildi. Qeyd edək ki, Almaniya 299 birmandatlı seçki dairəsinə bölünür və hər bir seçici Bundestaq üçün konkret namizədə səs verməlidir. Səslərin 5 faizdən çoxunu toplayan partiyalar federal ştatlarda tərtib edilmiş partiya siyahıları əsasında parlament fraksiyaları yaradırlar. Hazırkı seçkilər ilk dəfə olaraq yeni qanuna əsasən keçirilib: parlamentdəki yerlərin sayı 733-dən 630-a endirilib. Parlamentdə proporsional partiya təmsilçiliyi hüququ yenə də namizədləri ən azı üç birmandatlı seçki dairəsində qalib gələ bilmiş partiyalara verilir. Səsvermədə təxminən 59,2 milyon alman seçicisi iştirak edib. Son seçkilərin nəticələrinə görə isə, XXI əsrdə cəmisi iki dəfə (Şröder və Şolts) hökumət quran sosial demokratlar estafeti yenidən xristian demokratlara "təhvil verir".

### 35 ildə ilk dəfə...

1990-cı ildən bu yana ən böyük seçici fəallığının qeydə alındığı (84 faiz) seçkidə Xristian Demokrat İttifaqı və Xristian Sosial Birliyinin (CDU/CSU) müxalifət bloku 299 seçki dairəsinin hamısında səslərin hesablanmasından sonra Almaniyada keçirilən parlament seçkilərində birinci yeri tutub və qalib elan edilib. Qeyd edək ki, Almaniya parlamentinə beş partiya daxil olub - CDU/CSU birinci yerdə olduğu üçün partiya lideri Mertzin kansler olacağı dəqiqləşib. İkinci yerdə isə heç bir partiya ilə əməkdaşlığı "hədəflənməyən" AfD-dir. Şoltsun partiyası səsvermələrdə üçüncü olub. Faiz nisbətlərinə gəldikdə, ilk yeri tutan CDU/CSU təxminən 29 faizə qədər, ikinci yeri tutan AfD 20,8 faiz, üçüncü yeri tutan sosial demokratlar isə 16,4 faiz səs yığıb. Parlamentə isə 5 partiya "düşüb". 5 faizlik səs baryerini SPD ilə "işıqfor" koalisiyasını (birliklərin rənglərinə görə) yaratmış Yaşıllar Partiyası (11,6 faiz) və Sol Partiya (8,8 faiz) keçə bilib. "İşıqforun" üçüncü "rəngi" Azad Demokrat Partiyasıdır (FDP) 4,3 faizlə kənarda qalıb. Yeni kansler Fridrix Mertz Pasxa bayramına qədər, yəni aprelin 20-dək hökumət qurmaq niyyətində olduğunu açıqlayıb. Şoltz onu qələbə münasibətilə təbrik edib və səsvermənin nəticəsini partiyası üçün "acı" məğlubiyyət adlandırıb.

### Mertz "hakimiyyət qurmaq" üçün əməkdaşlıq etməlidir...

CDU/CSU 14 milyon 158 min 432 səs alaraq cəmisi 208 yer qazanıb. İkinci yeri tutmuş AfD isə 10 milyon 327 min 148 səsin müqabilində parlamentdə 152 deputatla təmsil olunacaq. "Köhnə hakimiyyət" olan SPD isə "oturacaqların" cəmisi 120-ni əldə edə bilib. Şoltzun partiyasına 8 milyon 148 min 284 şəxs səs verib. Keçmiş XİN başçısı Berbokdan sonra partiyasının lideri olan Robert Habekin başçılığı ilə "Yaşıllar" 5 milyon 761 min 476 səslə 85, Sol Partiya isə 4 milyon 355 min 382 səslə 64 yer qazanıb.

Birinci yerdə olmasına baxmayaraq, CDU/CSU Bundestaqda müstəqil səs çoxluğu əldə edə bilməyib - bunun üçün 630 yerdən 316-nın qazanılması gərəkir. Üzərində "əməkdaşlıq tabusu" gəzdirən AfD isə Almaniya parlamentində ikinci ən böyük fraksiyadır. Mertz yeni hakim komandanı formalaşdırmaq üçün mütləq şəkildə koalisiyaya getməlidir - CDU/CSU isə ikinci yeri tutmuş ifrat sağçılarla koalisiya yaratmayacağını təsdiqləyib. Hələ ki, Şoltsun qrupu yeni "iqtidar" üçün ən məqbul əməkdaş sayılsa da, hələlik bununla bağlı dəqiq fikir yoxdur. Qeyd edək ki, Bundestaqda yeni kanslerə bağlı səsvermə yalnız hakim koalisiya qurulduqdan sonra keçiriləcək.




### Veydel keçmiş ADR-də daha populyardır...

Qeyd edək ki, AfD-nin kanslerliyə namizədi Alisa Veydel partiyasının qələbəsini "tarixi uğur" adlandırıb və koalisiya yaratmaq məsələsini müzakirə etməyə hazır olduğunu bildirib. Səsvermənin nəticələrindən göründüyü kimi, radikal sağçı partiyalar keçmiş Almaniya Demokratik Respublikasının (ADR) ərazisində tərkibində olan dövlətlər tərəfindən fəal şəkildə dəstəklənib: Türingiyada AfD demək olar ki, 39 faiz, Saksoniya və Saksoniya-Anhaltda - 37 faiz, Meklenburqda - 35 faiz, Brandenburqda - 32 faizdən çox səs toplayıb.

Xatırladaq ki, AfD ciddi miqrasiya siyasətinin tərəfdarıdır. Qrup həm də Avropa İttifaqının yeni standartlara əsaslanmasını tələb edir - hətta bu islahat uğursuz olacağı təqdirdə sağçılar Almaniyanın Aİ-dən çıxması üçün səsvermə belə tələb edəcək. Eyni zamanda partiya həm də atom elektrik stansiyalarının bərpasının, Rusiya ilə münasibətlərə yenidən baxılmasının tərəfdarıdır. "Köhnə koalisiya" məhz iqtisadi siyasətdə razılığa gələ bilmədiyi üçün dağıldı - Aİ-nin ən böyük iqtisadiyyatı olan Almaniya iki ildir ki, inkişaf etmir...

### ABŞ radikal sağçıları dəstəkləyir?

Vurğulandığı kimi, sağçıların mühüm irəliləyiş əldə etdiyi indiki halda miqrasiya və təhlükəsizlik məsələsi ön plana çıxır. Xatırladaq ki, son dövrlərdə Almaniyada miqrasiya təmayüllü kriminal hadisələrin sayı artıb. 2024-cü ilin may ayından bəri Almaniyada 5 ölümcül hücum qeydə alınıb - hər beş halda şübhəlilərin miqrasiya keçmişi mövcud olub. Seçkilər ərəfəsində, şənbə günü daha bir hücum baş verib: bir nəfər (polisin dediyinə görə, suriyalı) Holokost abidəsində turisti bıçaqlayıb.

Mertz isə Almaniya iqtisadiyyatını bərpa edəcəyini, miqrasiyanı məhdudlaşdıracağını, vergiləri və sosial təminat xərclərini azaldacağını və Ukraynaya dəstəyi artıracağını vəd edir. Maraqlıdır ki, ABŞ prezidenti Donald Trampın yaxın adamı İlon Mask açıq şəkildə AfD-ni dəstəklədiyini bildirib. Vitse-prezident J.D.Vans isə Münhendəki tarixi tənqidi çıxışından qısa müddət sonra Veydel ilə görüşüb. Bu isə, Mertzin kanslerlik yolunda ən mühüm təhlükələrdən xəbər verir...

**P.İSMAYILOV**

# Düşmənlərin əbədi izdivacı

## Qustav Floberin "Salambo" romanı haqqında

Onu tarixin dərinliyinə çəkən iki başlıca səbəb vardı: biri havasıyla nəfəs aldığı burjua gerçəkliyinə patoloji ikrah duyduğuna görə keçmişdə sığınacaq axtarması, o biri ta gəncliyindən qədim tarixə qəribə bir doğmalıq, məhrəmlik hissi bəsləməsi.

Qələm dostlarına yazdığı məktublardan göründüyü kimi, Floberin qəlbində dərinə işləmiş, bəlkə yüzüncü babasınacan kök atmış güclü reinkarnasiya duyğusu, görmədiyi, yaşamadığı zamanlara, bəşərin uşaqlığına, gəncliyinə həsrətdən doğan kövrək, həzin bir nostalji havası daim hökm sürüb. Ona elə gəlirmiş tarixin ən mühüm dönəmlərində şəxsən iştirak eləyib: qədim Misir fironlarının dövründə Nil çayında qayıqçı işləyib, Pun müharibələri zamanı Roma respublikasında kəniz alveriylə məşğul olub, antik Yunanıstanda bəlağətli nitqlər söyləyən natiq kimi ad çıxarıb, səlib yürüşlərinə qoşulduğu illərdə Suriyada çoxlu üzüm yediyinə görə partlamaya düşdüyündən dinşəriət uğrunda canını qurban verib; bir dövrdə bir ölkədə dəniz qulduru, başqa bir dövrdə başqa bir ölkədə rahib olub, gəzərgi aktyor kimi Qərb ölkələrini diyar-diyar dolaşıb, zalım padşah qismində hansısa Şərq ölkəsində rəiyyətə divan tutub...

Reinkarnasiya hissi özüylə panteizm duyğusu da gətirir, bunları bir-birindən ayırmaq mümkün deyil. Yeri gəlmişkən deyim ki, Floberin cahanşümul ədəbi üslubu da panteizmin ana prinsipi üzərində formalaşıb.

***

"Madam Bovari" romanı üzərində çəkdiyi altı-yeddi illik ağır əziyyətdən sonra ondan da ağır bir işə girişəndə Qustav Flober böyük uğur qazanacağına bir o qədər əmin deyildi. Dövrün ədəbi konyunkturası yazıçıdan qaldırmaq istədiyi sosial-psixoloji-fəlsəfi problemləri yaşadığı cəmiyyətin fonunda nəzərdən keçirməyi, insan qəlbinin təzadlarını, təbəddülatlarını çağdaş gerçəkliklər kontekstində araşdırmağı tələb eləyirdi. Başqa sözlə desək, tarixi mövzulara baş vurmaq günün reallıqlarından qaçmaq kimi qəbul olunur, istər ədəbi tənqid, istərsə oxucu kütləsi belə halları çox da təqdir eləmirdi. Üstəlik də, əsərin yazıldığı illərdə ("Salambo" üzərində 1857-ci ildə işə başlayan yazıçı romanı 1862-ci ildə bitirib) tarix elminin xaraba qalmış qədim Karfagen sivilizasiyası barədə çox az bilgisi vardı, bu səbəbdən o qaranlıq tarixə insanların marağı da çox deyildi. Buna baxmayaraq Flober tarixin zülmətinə, zamanın dərin laylarına gömülmüş sivilizasiyanı bir arxeoloq hərisliyi, alim səbriylə diriltməyə nail oldu. Bunca ağır zəhmətin öhdəsindən gəlmək üçün o, başda qədim yunan tarixçisi Polibinin salnamələri olmaqla neçə-neçə tarixi qaynağa baş vurdu, Karfagen tarixinə gözlə, əllə toxunmaq üçün Tunis səfərinə çıxıb romanındakı hadisələrin cərəyan elədiyi torpaqlarda iki ay sərasər dolaşdı.

Doğrudur, sonrakı tədqiqatlar ticari münasibətlərin, tacir xalqın yaratdığı Karfagen respublikası ilə bağlı on doqquzuncu əsrdə formalaşmış təsəvvürlərin bir xeyli yanlış olduğunu göstərdi, ancaq sonrakı elmi-tarixi yeniliklər "Salambo"nun məzmununa, dəyərinə xələl gətirmədi. Roman elə işıq üzünə çıxarıldığı dövrdəcə böyük populyarlıq qazandı, həm tənqid, həm təqdir olundu. Viktor Hüqo, Lekont de Lil, Şarl Bodler kimi ədəbiyyat generalları, eləcə də məşhur bəstəkar Berlioz müəllifə diframblar söyləyib öygülər yağdırdılar; tənqidçilərin bir qismi isə yazıçını qədim həyatın detallarına, məişət xırdalıqlarına həddindən artıq fokuslanmaqda, naturalist, hətta sadist səhnələrin təsvirinə aşırı aludə olmaqda, ən vacibi isə zahiri effekt yaratmağa güc verib qəhrəmanların daxili portretini, psixoloji mənzərəsini çəkməkdən yayınmaqda qınadı. Bu qınaqda gerçək payı yox deyil, həqiqətən müəllif "Madam Bovari"də dahiyanə ustalıqla gen-bol yararlandığı psixoloji analiz metodundan bu əsərdə, demək olar, istifadə eləmir, əvəzində həm saray, həm məbəd, həm də ordu həyatının detallarını bütün incəliklərinə qədər elə heyrətamiz kinematoqrafik dəqiqliklə canlandırır ki, oxucunun bu xırdalıqlardan bezib yorğun düşməməsi müşkül məsələdir, çünki bütün təsvir olunanları təsəvvürə gətirmək oxucudan xalis rəssam təxəyyülü istəyir. Əgər kino erasına qalsaydı, şübhəsiz, Floberə ssenarist kimi tay tapılmazdı.

***

Romandakı hadisələr bizim eradan əvvəl 240-cı ildə qədim Karfagen ərazisində baş verir. Süjetin əsasında muzdlu qoşunun hökumətə qarşı elə həmin il baş qaldırmış üsyanı, sərkərdə Hamilkar Barkanın komandanlığı altında Karfagen ordusunun dövləti çökdürmək gücündə olan qiyamı amansızcasına yatırması durur. Bütün bunlar tarixi sənədlərdə qeydə alınmış faktlar olsa da, müəllif keçmişin bədii salnaməsini yaratmaq məqsədi güdməyib, əsərin mərkəzinə tarixçilərin nəzərindən yayınmış daha mühüm bir hadisəni - sevgi macərasını çəkib.

Dövrünün özü ranqda başqa yazıçıları sayaq Flober də tarixi proseslərdən adı tarixə düşməmiş qəhrəmanlarına fon verib, dövran yaradıb. Bu baxımdan qaranlıq, ölü zamana baş vurmaq müəllifə əl-qolunu gen açmaq, təxəyyül atını sağa-sola səyirtmək səlahiyyəti də verib. Hərçənd müəllif bu geniş səlahiyyətdən sui-istifadə eləməyə çalışmayıb, bəşərin qaranlıq yaddaş quyusuna in salmaqla mürgülü xatirələri oyatmaq üçün əlindən gələni əsirgəməyib, ölü zamanın laylarını dəbərdib, yoxluğu ələ gətirib. Özünü realist də yox, "sonuncu romantik" saydığına baxmayaraq Floberin bu əsəri iki min il əvvəl yaşamış qədim bir müəllifin qələmə aldığı, romantizm, naturalizm elementləriylə zəngin realist romana bənzəyir.

***

Aramsız savaşların əldən saldığı Karfagenin dövlət şurası muzdlu qoşunun haqqını ödəyə bilmədiyindən qəzəbli döyüşçülərin başını təmtəraqlı ziyafətlə qatmağa çalışır. Min bir nemətin düzüldüyü süfrələr Hamilkarın möhtəşəm sarayının ətrafındakı bağbağçada açılır. Hərəsi bir ölkədən, bir eldən çıxmış yorğun-üzgün, ac, yaralı əsgərlər hamılıqla ziyafətə axışırlar. Şuranın hesabı özünü doğrultmur, dadlı təamlardan yeyib şərabdan içən döyüşçülər sakitləşmək əvəzinə daha da qızışırlar, bir ucdan yemək-içmək, pul, qadın istəyirlər. Zindanın qapılarını qırıb dustaqları buraxırlar, Hamilkarın bağındakı hovuzda üzən müqəddəs balıqları bişirib yeyirlər.

Məclisin coşub-daşan çağında bağçada başdan-ayağa ləl-cəvahirlə bəzənmiş gözəl bir qız peyda olur. Bu, muzdlu qoşunun başında neçə-neçə döyüşdən qalib çıxmış sərkərdə Hamilkar Barkanın qızı Salambodur. Qız naməhrəm baxışlardan uzaqda, xədimlərin, kənizlərin arasında, Karfagenin qoruyucu tilsimi, himayədarı ilahə Tanitin mələyi, kahini, həm də təcəllası kimi bəslənib. Barbarlara müxtəlif dillərdə müraciət eləyən Salambo müqəddəs balıqlara tamah salmaqla onların ağır suç işlədiklərini, günaha batdıqlarını söyləyir. Sərxoş döyüşçülər susub onun nitqinə qulaq kəsilirlər. Onlardan birinin - numidiyalıların gənc rəhbəri Nar Havasın qıza dikilmiş həris baxışları xüsusilə seçilir. Nar Havas muzdlu deyil, ziyafətə də təsadüfən qoşulub. O, altı aydan bəri Hamilkarın sarayında yaşasa da, Salambonu ilk dəfə görür, qızın gözəlliyi qarşısında heyrətini gizlədə bilmir.

Süfrənin o biri başında Mato adlı azman liviyalı döyüşçü əyləşib. Salambonun gözəlliyi onun da gözünü qamaşdırır, Mato canlı tanrıçaya pərəstişlə təzim göstərir. Cavabında Salambo ona şərabla dolu piyalə uzadır. Qalliyalı döyüşçü deyir ki, onun vətənində qadın kişiyə şərab verirsə, demək, həmin kişiylə yatağını bölüşmək istədiyinə işarə vurur. Söz onun ağzından çıxar-çıxmaz Nar Havas ucubiz silahıyla Matonun əlini yaralayır. Qəzəblənmiş liviyalı yerindən sıçrayan kimi numidiyalı qaçıb sarayda daldalanır. Mato Nar Havasın arxasınca örtülən qırmızı darvazanı açanda azad olunmuş kölələrdən biri Spendi ilə qarşılaşır. Spendi ona deyir ki, əvvəllər bu sarayda yaşayıb, onun hər künc-bucağına bələddir, azadlığa qovuşmasının müqabilində burada saxlanan xəzinələrin yerini Matoya göstərə bilər. Di gəl, liviyalı cəngavərin fikri-zikri hər xəzinədən dəyərli Salambonun yanında qalıb.

davamı növbəti sayımızda



**F.Uğurlu**

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Qasid” MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**




# Xarici siyasətimizin uğur formulu

## Güclü dövlətçiliyimizə əsaslanan strategiya...



Müasir beynəlxalq münasibətlər sistemində önəmli rola malik Azərbaycanın xarici siyasətinin uğurları göz önündədir. Dünyada iqtisadi və siyasi böhranın tüğyan etdiyi bir vaxtda Azərbaycan tarixi köklərindən qaynaqlanan və həyat tərzinə çevrilmiş multikulturalizm ideyalarını ortaya qoyaraq bu siyasətin alternativinin olmadığını əyani şəkildə sübuta yetirib. Ölkəmiz dünyada sülhün və təhlükəsizliyin qarantına çevrilib. Azərbaycan bərabərhüquqluluq əsasında dünyanın bütün ölkələri ilə əməkdaşlığa açıq olduğunu hər zaman bəyan edib.

Ölkəmizin yerləşdiyi mürəkkəb geostrateji mövqeyi, sahib olduğu təbii sərvətləri və tarixən qarşılaşdığı ədalətsizliklərə qarşı aparılmış mübarizə dövlət müstəqilliyimiz illərində həyata keçirilən xarici siyasətin əsas konturlarını müəyyən edib. Bu gün Azərbaycanın dünya arenasında qazandığı güc və dəstək də məhz bu istiqamətdə həyata keçirilən gərgin işlərin bəhrəsi kimi dəyərləndirilməkdədir.

### Azərbaycan ardıcıl və sistemli addımlar atır

Mövzunu “Yeni Azərbaycan”a şərh edən politoloq Zaur Məmmədovun sözlərinə görə, bu gün Azərbaycan regionun yeganə ölkəsidir ki, düşünülmüş və milli maraqlara söykənən xarici siyasəti ilə regional təhlükəsizliyin təmin olunması istiqamətində ardıcıl və sistemli addımlar atır: “Hazırda Azərbaycan dövlətinin həyata keçirdiyi enerji layihələri, regional inteqrasiyaya xidmət edən əməkdaşlıq formatları Cənubi Qafqazda sabitliyin təmin edilməsində mühüm rol oynayır. Bununla yanaşı, Azərbaycan dünyada sülhyaratma prosesində fəal iştirak edir, səmərəli təklif və təşəbbüslərlə çıxış edir, öz praktik fəaliyyəti ilə sülhün və təhlükəsizliyin möhkəmlənməsinə dəyərli töhfələr verir.

Prezident İlham Əliyev mühüm beynəlxalq tədbirlərdə dəfələrlə Ermənistanın işğalçılıq siyasətini ifşa edərək onların faşist ideologiyası yürütdüyünü və terrorizmin dövlət səviyyəsində dəstəkləndiyini bütün dünyaya bəyan edib. Xüsusilə son 20 ildə Azərbaycan diplomatiyasının səyləri nəticəsində münaqişənin həlli ilə bağlı BMT Təhlükəsizlik Şurası, Avropa İttifaqı, Avropa Şurası, İslam Əməkdaşlıq Təşkilatı, Türkdilli Dövlətlər Təşkilatı, Qoşulmama Hərəkatı və digər beynəlxalq təşkilatların sənədləri buna müvafiq hüquqi baza yaratdı. Son illər ərzində beynəlxalq təşkilatlar tərəfindən Azərbaycanın haqlı mövqeyini dəstəkləyən sənədlərin qəbul edilməsi dövlətimizin başçısının yürütdüyü ölkəmizin milli maraqlarına söykənən xarici siyasətinin nəticəsi idi”.

### Dərin analitik təhlil və strateji düşüncə tələb edən iş

Z.Məmmədovun sözlərinə görə, ölkəmizin yerləşdiyi mürəkkəb coğrafiya, böyük dövlətlərin maraqlarının kəsişdiyi Cənubi Qafqaz həmişə münaqişə və toqquşmalar meydanı olub: “Enerji və tranzit potensialı ilə bu maraqların getdikcə daha da kəskinləşdiyi müasir dövrdə Azərbaycanın suverenliyinin qorunması üçün regiona maraq göstərən böyük dövlətlərin, ikili standartlar yürüdərək ölkəmiz əleyhinə gizli və açıq şəkildə siyasət aparan ölkələrin yırtıcı istəklərini gözündə qoyacaq xarici siyasət aparılması, dərin analitik təhlil və strateji düşüncə tələb edən işdir. Ölkə başçısı Qarabağın yenidən inşası kimi təxirəsalınmaz vəzifələr fonunda bütün bunların öhdəsindən gəlməyi bacararaq mürəkkəb konyunktur dalğalanmaların çox sıx müşahidə olunduğu xarici siyasət məsələlərində hər kəsə master dərsi keçə biləcək bir üslubla Azərbaycanın maraqlarını ən yüksək səviyyədə qorumağı bacardı”.

### Uğurlu xarici siyasətin əsasında güclü dövlətçiliyimiz dayanır

Politoloq qeyd edib ki, ölkə başçısının prinsipial mövqeyi və diplomatik fəaliyyəti sayəsində Azərbaycanın İkinci Qarabağ müharibəsində beynəlxalq təşkilatların sənədləri əsas hüquqi baza kimi tarixi Qələbəni şərtləndirən amillərdən biri oldu: “Otuz ilə yaxın müddətdə münaqişənin həlli ilə bağlı Ermənistanın yürütdüyü siyasət, tutduğu mövqe tarixi reallıqları, münaqişənin əsl mahiyyətini əks etdirmirdi. Bunu Prezident İlham Əliyev 2019-cu il oktyabrın 3-də Soçi şəhərində “Valday” Beynəlxalq Diskussiya Klubunun XVI illik toplantısında və həmin il oktyabrın 11-də Aşqabadda MDB Dövlət Başçıları Şurasının məhdud tərkibdə iclasında, oktyabr ayının 25-26-da Qoşulmama Hərəkatının Bakıda keçirilən XVIII Zirvə görüşündə çıxışları zamanı tutarlı faktlarla sübut etdi.

Dünya sürətlə dəyişir və dünya siyasəti də baş verən hər cür konyunktur tərəddüdlər və beynəlxalq hədəflərlə zaman-zaman korreksiya olunur. Ancaq zamanın sınağından çıxmış və həmişə özünü ən yüksək səviyyədə doğrultmuş bir həqiqət var ki, bu, ölkəsinin, xalqının tam suverenlik içində, rahat, sülh şəraitində yaşaması üçün həyata keçirilən siyasətin daim qələbə çalması, dünyanı ədalətə qovuşdurmasıdır. Onillər boyu bütöv Azərbaycanın inkişafı üçün yeridilən uğurlu xarici siyasət xəttinin də uğuru bu ədalətə, güclü dövlətçiliyimizə dayanır”.

*Yeganə BAYRAMOVA*

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə “Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi”nin maliyyə dəstəyi ilə “Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi” istiqaməti üzrə hazırlanmışdır**

# Üçüncü koronavirus...

## HKU 5-CoV-2 nə dərəcədə təhlükəlidir?

**Çində yarasalarda koronavirusun yeni növü aşkar edilib. Bu barədə “South China Morning Post” nəşri xəbər yayıb. Nəşrin məlumatına görə, bu, ilk dəfə Honq-Konqda yapon yarasasında aşkar edilmiş HKU 5 koronavirusunun yeni xəttidir. Tədqiqat Quançjoudakı Çin Elmlər Akademiyası, Uhan Universiteti və Uhan Virusologiya İnstitutunun mütəxəssisləri tərəfindən Quançjou laboratoriyasında aparılıb.**

### Panikaya əsas yoxdur...

Alimlər yarasa nümunələrindən təcrid olunmuş virusun insan hüceyrələrini yoluxdurmaq qabiliyyətinə malik olduğunu müəyyən ediblər. Lakin ekspertlər hələlik panikaya əsas olmadığını vurğulayırlar. HKU 5-CoV-2-nin insanlar arasında yayılma riskini kiçiltməmək şərtilə təhlükəni daha dəqiq qiymətləndirmək üçün əlavə tədqiqatlara ehtiyac olduğu deyilir. Ümumdünya Səhiyyə Təşkilatından (ÜST) isə bildirilib ki, Çində yarasalarda aşkar edilən HKU 5 koronavirusu ilə bağlı hələlik heç bir əlavə məlumat alınmayıb.

### Yüngül və ya kəskin qızdırma, öskürək

Mövzu barədə “Yeni Azərbaycan”a danışan infeksionist Vüqar Cavadzadə bildirib ki, araşdırmaya görə, HKU 5-CoV-2 adlanan yeni virus SARS-CoV-2 ilə eyni olan ACE2 reseptorundan istifadə edərək insan hüceyrələrinə bağlana bilir: “Alimlər də bildirirlər ki, bu virusun heyvanlardan insanlara birbaşa ötürülməsi riski var. Yarasalarda aşkarlanan koronavirusun yeni növü insanlarda infeksiyaya səbəb olan yeddinci, SARS-CoV-1-dən sonra epidemiyaya və pandemiya potensialına malik olan üçüncü koronavirusdur. Yeni növ infeksiya əsasən damcı yolu ilə yayılır və asimptomatik, yüngül və ya kəskin qızdırma, öskürək və burun axması, bəzi hallarda ölümlə nəticələnən tənəffüs yoluxucu xəstəliklərlə müşayiət oluna bilər”.



### Virusun geniş yayılma ehtimalı azdır, amma...

V.Cavadzadə qeyd edib ki, yeni növ HKU5-CoV-2-nin SARS-CoV-2 ilə struktur oxşarlıqları olsa da, ilkin qiymətləndirmələr göstərir ki, hələlik virusun geniş yayılma ehtimalı azdır: “Bu əminliklərə baxmayaraq, HKU5-CoV-2-nin müəyyən edilməsi zoonotik patogenlərin yaratdığı davamlı təhlükəni vurğulayır. Virusun yüksək ölüm nisbəti ilə tanınan Yaxın Şərq Tənəffüs Sindromu (MERS) koronavirusu ilə genetik əlaqəsi sağlamlıq potensialıyla bağlı narahatlıqları daha da artırır. HKU5-CoV-2-nin ortaya çıxması beynəlxalq ictimaiyyətin sürətli reaksiyalarına səbəb oldu. Bütün dünyada səhiyyə təşkilatları vəziyyəti yaxından izləyir, potensial yayılma hadisələrinin qarşısını almaq üçün heyvan su anbarlarında koronavirus ştammlarına nəzarətin gücləndirilməsinin vacibliyini vurğulayır”.

### Məlumatlandırma vacibdir...

İnfeksionist qeyd edib ki, koronaviruslar 4 növə bölünür: “Alfa-koronaviruslar, beta-koronaviruslar, qamma-koronaviruslar və delta-koronaviruslar: “İnsanları yeni növ HKU5-CoV-2 haqqında məlumatlandırmaq vacibdir. Hər hansı yeni virusun və ya mövcud virusun mutasiyasının nə vaxt və harada görünəcəyini, onun insanlar üçün nə qədər zərərli ola biləcəyini proqnozlaşdırmaq mümkün deyil. Buna görə də güclü aşkarlama və müşahidə sistemlərinin olması çox vacibdir”.

*Yeganə BAYRAMOVA*

# “Azercell” 800-ə yaxın uşaq və valideyni rəqəmsal təhlükəsizlik qaydaları ilə tanış edib

*“Təhlükəsiz internet” layihəsinin növbəti mərhələsi başa çatdı*



Lider mobil operator əhalinin rəqəmsal savadlılığının artırılmasına yönəlmiş təşəbbüsləri ni davam etdirir. Uşaqların rəqəmsal mühitdə mövcud təhlükələrdən qorunması məqsədilə həyata keçirilən layihənin növbəti mərhələsində 700-ə yaxın məktəbli və 100-ə yaxın valideyn xüsusi təlimlərdə iştirak edib.

Bu etapda təlimlər Bakı, Sumqayıt, Quba, Xızı, Astara və Mingəçevirdə keçirilib. İnteraktiv dərslər zamanı şagird və valideynlər rəqəmsal təhlükəsizliyin əsas aspektləri ilə tanış olublar.

Mütəxəssislər tərəfindən təqdim edilən təlim proqramı virtual tanışlıqların təhlükələri, şəxsi məlumatların qorunması, onlayn fırıldaqçılıq, trollinq, kiberbullinq ilə mübarizə üsulları kimi bir çox vacib mövzuları əhatə edib.

Təlimlər beynəlxalq standartlara uyğun şəkildə “GİD CSR Consulting” tərəfindən sertifikatlaşdırılmış beynəlxalq təhlükəsizlik məktəbinin proqramı əsasında keçirilib .

Qeyd edək ki, “Azercell” on ilə yaxındır ki internet təhlükəsizliyi mövzusunda maarifləndirmə layihələri təşkil edir.




Təsisçi:
Yeni Azərbaycan Partiyası
Baş redaktor:
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4677
Sifariş: 400
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova